QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 242 (5714) **21 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Dövlətin şəhid ailələrinə qayğısı davamlı xarakter daşıyır

*Bütün bunlar uğurlu sosial siyasətin məntiqi nəticəsidir*



Səh 2

5

**YAP-da "Dayanıqlı İnkişaf Məqsədləri gənclər üçün" adlı tədbir keçirilib**



6

**Şəhid anası: Birdəfəlik ödəmələrin verilməsi şəhid ailələrinə göstərilən diqqətin növbəti təzahürüdür**



11

**Rusiya Ermənistana ağır siyasi zərbə hazırlayır**



# Dövlətin şəhid ailələrinə qayğısı davamlı xarakter daşıyır

## *Bütün bunlar uğurlu sosial siyasətin məntiqi nəticəsidir*



### *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin yaradılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev yüksəkgərginlikli elektrik verilişi xətlərinin yenidən qurulması və yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi haqqında Sərəncam imzalayıb.





***Azərbaycan Prezidenti İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi qərarlar, iqtisadi gücü daim artan ölkəmizin fəal və məqsədyönlü siyasət kursuna malik olması sosial cəhətdən həssas əhali qruplarının etibarlı müdafiə sistemi ilə əhatə olunmasına şərait yaradıb. Belə ki, Azərbaycan Prezident İlham Əliyevin mühüm sosial önəm kəsb edən 2018-ci il 19 aprel tarixli Fərmanına uyğun olaraq, birdəfəlik ödəmənin verilməsi prosesi bu gün qanunvericiliyin tələblərinə ciddi riayət olunması və şəffaflığın tam təmin edilməsi şəraitində həyata keçirilir.***

## Əhalinin ümumi rifah halının yüksəldilməsi dövlət sosial siyasətinin prioritet sahəsidir

Bu gün Azərbaycanda uğurlu və mütərəqqi sosial siyasət həyata keçirilir. İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Ölkəmizin iqtisadi inkişafı nəticəsində, sosial ayırmaların həcminin artırılması, əhalinin ümumi rifah halının yüksəldilməsi dövlət sosial siyasətinin prioritet sahəsi kimi diqqət mərkəzindədir.

Təbii ki, sözügedən Fərmanın imzalanması ölkəmizdə şəhid ailələrinin etibarlı sosial müdafiəsinin təmin edilməsinin dövlət başçısının uğurlu sosial siyasətində əsas istiqamətlərdən biri olduğunu təsdiq etməklə, bu sahədə getdikcə gücləndirilən məqsədyönlü tədbirlərin növbəti davamıdır. Belə ki, son 15 ildə yüksək səviyyədə davam edən siyasət nəticəsində şəhid ailələrinə, döyüşlərdə əlil olmuş insanlara dövlət qayğısı daim artıb və bu məqsədlə icra olunan proqramlar daha da genişləndirilib. Həmin təbəqələrə aid vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində işlər ildən-ilə gücləndirilməklə, 6,1 mindən çox müasir tələblərə uyğun yeni mənzil inşa etdirilərək, əlil və şəhid ailələrinin istifadəsinə verilib, 6 min nəfərdən çox müharibə əlili və onlara bərabər tutulan vətəndaş minik avtomobili ilə təmin edilib.

Onlara verilən imtiyaz və güzəştlərin miqyası da genişləndirilməklə, Prezident İlham Əliyevin müvafiq fərmanları ilə 2007-ci ildən şəhid ailələrinin, 2008-ci ildən müharibə əlillərinin Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə təminatına başlanılıb. Ötən dövrdə bu təqaüdlərin, habelə, onlara ödənilən müavinətlərin və pensiyaların dəfələrlə artırılması təmin olunub.

Sözügedən məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin üzvü Musa Quliyev deyib ki, ölkə başçısı şəhid ailələrinə, Azərbaycan vətəndaşlarına həmişə böyük qayğı ilə yanaşıb. Onun sözlərinə görə, sözügedən Fərman ölkə başçısının şəhid ailələrinə, Azərbaycan vətəndaşlarına böyük qayğısının ifadəsidir: "Ölkə Prezidenti Fərman verərək, öz fondundan bu vəsaiti ayırmaqla məsələni köklü sürətdə həll etdi və dövlətin vətəndaşının, şəhid ailələrinin yanında olduğunu bir daha göstərdi. Bu Fərman böyük bir addımdır. Əslində, bu, Prezidentin o ailələrə birbaşa öz fondundan verdiyi yardımdır və yüksək qiymətləndirilməlidir".

M.Quliyev əlavə edib ki, Azərbaycanın iqtisadi qüdrətinin artması həm ölkənin müdafiə potensialının gücləndirilməsi, həm də hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsi üçün şərait yaradıb: "Əlbəttə, bu mühüm sənəd həm sosial müdafiə, həm də vətənpərvərlik tərbiyəsi ilə bağlıdır. Hərbi qulluqda xidmət edən, döyüşəcək insanlara, onların ailələrinə böyük stimuldur. Bu, ölkə Prezidentinin humanist xarakterindən, Azərbaycan dövlətinin humanist siyasətindən xəbər verən Fərmandır. Bu proses başa çatandan sonra növbəti mərhələdə Qarabağ müharibəsi veteranlarına birdəfəlik sığorta ödənişlərinin verilməsi nəzərdə tutulub. Bütün bunlar, bir daha təsdiq edir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən, əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətinin əsas tərkib hissələrindəndir".

## Düşünülmüş siyasət, güclü iqtisadiyyat

Bu, real faktordur ki, Azərbaycanın sosial-iqtisadi inkişafının təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Bu gün tam müstəqil siyasət yürüdən Azərbaycan heç kimdən asılı deyil və iqtisadi müstəqillik ölkəmizə böyük dividendlər qazandırıb. Dövlət başçısının söylədiyi kimi, iqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur: "Bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, - iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaq. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq. Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrinin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib sizin problemlərinizi həll edəcəyik".

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı və kompleks tədbirlər makroiqtisadi sabitliyin daha da möhkəmlənməsinə, ölkənin dayanıqlı inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfələr verir. Digər tərəfdən, bu siyasətin əsas mahiyyəti aztəminatlı əhali qruplarının dayanıqlı təminat sistemini yaratmaq, bununla da, ölkə əhalisinin həyat şəraitinin uzunmüddətli yaxşılaşdırılmasına nail olmaqdır.

Bir sözlə, görünən odur ki, əhalisinin sosial müdafiəsinin təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**R.HÜSEYNOVA**

# Sosial müdafiəyə ehtiyacı olan şəxslərin maddi rifahı yüksəlir

*Dövlət başçısının Sərəncamı ilə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 (yüz) manat məbləğində birdəfəlik yardım ödəniləcək*

**Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, dövlətin prioritet istiqamətlərdən hesab olunur. Ölkədə uğurla həyata keçirilən dövlət-sosial siyasətinin əsas xəttini ölkə vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması təşkil edir.**



İqtisadiyyatda həyata keçirilən köklü islahatlar bu sferada dinamik və davamlı inkişafı təmin etməklə bərabər, həm də əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına geniş imkanlar açıb. İqtisadi inkişaf və maliyyə imkanlarının çoxalması adekvat olaraq xalqın sosial rifahının və güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunmaqdadır.

Son 15 ildə vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sosial müdafiə sisteminin möhkəmləndirilməsi, bu sahədə mövcud olan qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində xeyli işlər görülüb. Bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi və yoxsulluğun aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsini verib. İşsizlik səviyyəsi 5 faiz, yoxsulluq səviyyəsi 4,9 faizədir. Əmək bazarında inkişaf meyillərinin davamlı xarakter alması, məşğulluğun və ümumən iqtisadi fəallığın artırılmasına əlverişli şəraitin yaradılması, işçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması və digər vacib istiqamətlərdə kompleks tədbirlər həyata keçirilib. Təqaüdçülərin, əlillərin, şəhid ailələrinin, milli qəhrəmanların ailələrinin, qaçqın və məcburi köçkünlərin, digər sosial kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olub. Həmçinin, əməkhaqlarının və aztəminatlı ailələrə verilən müavinətlərin artırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib.

Ölkədə aztəminatlı ailələrin məşğulluq probleminin həlli istiqamətində icra olunan özünüməşğulluq proqramı aztəminatlı ailələrin öz təsərrüfatlarını quraraq, kiçik ailə biznesinə çıxışına, öz zəhmətləri, səyləri ilə gəlirlərini artırmalarına, həyat şəraitlərini yaxşılaşdırmalarına imkan yaratmaqdır. Bunun üçün proqram iştirakçılarına mal və materiallar verilməklə, onlara təsərrüfatları idarə etmək və genişləndirmək üçün müvafiq məsləhət xidmətləri də göstərilir. Proqram digər tərəfdən kiçik və orta sahibkarlığın, kənd təsərrüfatının inkişafına bir dəstəkdir.

Ölkədə ünvanlı dövlət sosial yardımı sisteminin işə düşməsi aztəminatlı ailələrin rifahının yaxşılaşmasına təkan verib. Ünvanlı sosial yardımın məqsədi aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsindən ibarətdir. "Ünvanlı dövlət sosial yardımı haqqında" qanunun qüvvəyə minməsindən, qısa müddət ötməsinə baxmayaraq, onun ünvanlılıq, ədalətlilik və bərabərlik kimi prinsiplərinə əməl olunmaqla, müsbət nəticələr əldə edilib. Bu yardımın verilməsi minlərlə ailənin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olub. Minimum əməkhaqqının, pensiya və müavinətlərin davamlı olaraq artırılması ilə yanaşı, ünvanlı sosial yardım mexanizminin tətbiqi nəticəsində, ölkədə adambaşına düşən orta aylıq gəlirlər davamlı olaraq artmaqdadır. Xatırladaq ki, Azərbaycanda ünvanlı sosial yardım 2006-cı ilin aprelindən tətbiq olunur. Həmin il 48 min ailə bu sosial müdafiə formasından bəhrələnirdi. Statistik rəqəmlərə əsasən, 2018-ci ilin 1 oktyabr tarixinə orta hesabla 50,2 min ailə (200,2 min nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin edilib. Hər ailəyə ayda orta hesabla 165,4 manat yardım ödənilib.

Aztəminatlı əhaliyə dövlət qayğısını əks etdirən göstəricilər içərisində ayrı-ayrı qrup vətəndaşlara müxtəlif güzəştlərin və imtiyazların verilməsi xüsusi qeyd edilməlidir. Son bir neçə ildə sosial müdafiəyə ehtiyacı olan şəxslərin maddi rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərlə yanaşı, onların bəzi zəruri tələbatlarının ödənilməsi üçün də dövlət büdcəsindən ayrılan vəsaitlərin miqdarı artırılıb. Bununla da, müharibə əlilləri və şəhid ailələri üçün yaşayış evlərinin tikintisi, onların minik avtomobilləri ilə təmini sürətlənib, əlillərin sanatoriya-kurort müalicəsinin təşkili, minlərlə ailəyə hər il pulsuz dərman preparatlarının verilməsi dövlətin sosialyönümlü siyasətinin məntiqi nəticəsidir.

"Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2018-ci il tarixli Sərəncamı həyata keçirilən dövlət-sosial siyasətin məntiqi davamıdır. Sərəncama əsasən, 2018-ci il 28 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 (yüz) manat məbləğində birdəfəlik yardım ödəniləcək. Birdəfəlik yardımın maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində ünvanlı dövlət-sosial yardımı və sosial müavinətlər üçün nəzərdə tutulmuş vəsaitin xərclənməmiş qalıq hissəsindən 5 (beş) milyon manat ayrılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik yardımın ünvanlı dövlət-sosial yardımı alan ailələrin hesablarına köçürülməsini təmin edəcək.

Ünvanlı sosial yardım aztəminatlı ailələrin rifahını yaxşılaşdırmağa xidmət edir. Əhalinin sosial durumunun yaxşılaşması isə ölkədə sabitliyə və davamlı inkişafa təminatdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Akademik Cəlal Əliyev adına beynəlxalq mükafat təsis edilib



Akademik Cəlal Əliyevin dünya fotosintez elminə verdiyi töhfələri nəzərə alaraq, Beynəlxalq Fotosintez Cəmiyyəti (ISPR - International Society on Photosynthesis Research) görkəmli alimin şərəfinə "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfransın keçirilməsi haqqında qərar qəbul edib və onun adına "The Jalal Aliyev Lecture Scholarship Award" ("Akademik Cəlal Əliyev adına mükafat") beynəlxalq mükafat təsis edib.

AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutundan AZƏRTAC-a bildiriblər ki, "Akademik Cəlal Əliyev adına mükafat"ı alan ilk alim Yaponiyanın Okoyama Universitetinin professoru Jian-Ren Shen olub. Mükafat alimə Bakıda keçirilən "Davamlı inkişaf naminə fotosintez və hidrogen enerjisi tədqiqatları" mövzusunda IX beynəlxalq konfransda Beynəlxalq Fotosintez Cəmiyyətinin katibi, professor Julian Eaton-Rye tərəfindən təqdim edilib.

Jian-Ren Shen 1961-ci ildə Çinin Jeçianq vilayətində anadan olub, 1982-ci ildə Jecianq Kənd Təsərrüfatı İnstitutunu bitirib, 1986-cı ildə Yaponiyanın Tokio Kənd Təsərrüfatı və Texnologiyası Universitetində magistr dissertasiyasını müdafiə edib, 1990-cı ildə isə bu universitetdə fəlsəfə doktoru dərəcəsini alıb. O, 1990-1997-ci illərdə Yaponiyanın RIKEN İnstitutunda Günəş Tədqiqatları qrupunda tədqiqatçı alim kimi, 1997-2003-cü illərdə həmin institutda böyük elmi işçi kimi fəaliyyət göstərib. 2003-cü ildən bu günə kimi Yaponiyanın Okayama Universitetinin professorudur. Eyni zamanda, Yaponiya Fənlərarası Tədqiqatlar İnstitutunun professoru və dekan müavinidir. Professor Jian-Ren Şenin tədqiqatları fotosintetik sistemlərin struktur və funksiyasının öyrənilməsinə həsr olunub.

## "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin növbəti qurultayı keçirilib

Dekabrın 20-də "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin növbəti qurultayı keçirilib. AZƏRTAC xəbər verir ki, toplantıda qurumun ötən dövrdəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb. Həmçinin icmanın yeni sədri və idarə heyəti seçilib.

İctimai Birliyin sədri Bayram Səfərov qurumun ötən dövrdəki fəaliyyəti barədə danışıb. Bildirib ki, İctimai Birlik Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın işğalçılıq siyasəti və erməni separatizminin beynəlxalq aləmdə ifşası istiqamətində səylərini davam etdirir. Münaqişənin tarixi kökləri və onun həlli ilə bağlı Prezident İlham Əliyevin yürütdüyü siyasət, həyata keçirilən genişmiqyaslı tədbirlər barədə maarifləndirmə işləri aparılıb. Ermənistanın təcavüzü nəticəsində məcburi köçkün düşmüş vətəndaşlarımızın hüquq və mənafeləri ilə bağlı müxtəlif ölkələrlə, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilib. Müntəzəm olaraq Xocalı soyqırımı, Qaradağlı faciəsi, Azərbaycan ərazilərinin işğalı ilə əlaqədar xarici ölkələrin parlamentlərinə, beynəlxalq təşkilatlara müraciətlər edilir.

İctimai Birliyin Əlaqələndirmə Şurasının sədri Elçin Əhmədov, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev, deputatlar Flora Qasımova və Elman Məmmədov icmanın Dağlıq Qarabağ probleminin həlli istiqamətində həyata keçirilən dövlət siyasətinə verdiyi dəstəkdən danışıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin ardıcıl və prinsipial mövqeyi sayəsində bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq.

Qurultayda təşkilati məsələlərə də baxılıb. Tural Gəncəliyev "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri, Elçin Əhmədov və Asif Cahangirov isə sədrin müavinləri seçiliblər. Sonda qurultay iştirakçıları adından dünya ictimaiyyətinə ünvanlanan bəyanat qəbul olunub.

## Nazirlər Kabineti 2019-cu ilin Novruz, Ramazan və Qurban bayramları ilə bağlı Sərəncam qəbul edib



Dekabrın 19-da Azərbaycan Respublikasının Nazirlər Kabineti 2019-cu ilin Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında Sərəncam qəbul edib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Novruz Məmmədovun imzaladığı Sərəncamda deyilir: "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli Fərmanının 2-ci hissəsinə əsasən, 2019-cu il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, iyunun 5, 6-sı Ramazan bayramı, avqustun 12, 13-ü Qurban bayramı günləri müəyyən edilərək, qeyri-iş günü hesab olunsun".

## Son bir neçə ildə ölkəmizdə peşə təhsili alanların sayı əhəmiyyətli dərəcədə artıb



Peşə təhsili inkişaf etmiş iqtisadiyyatın formalaşmasında mühüm rol oynayır. Son bir neçə ildə ölkəmizdə peşə təhsili alanların sayı əhəmiyyətli dərəcədə artıb. AZƏRTAC xəbər verir ki, bunu təhsil naziri Ceyhun Bayramov Bakıda keçirilən "Azərbaycanda İnsan Kapitalı üzrə Forum"da çıxışı zamanı deyib. O bildirib ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ni təsdiq edib. Sənəddə peşə təhsili və təlimi sektoru üzrə 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyən edilib. Strateji Yol Xəritəsi yerli və beynəlxalq səviyyədə özəl sektor nümayəndələri üçün məlumat və əməkdaşlıq vasitəsi olacaq.

# Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib

***Şərur rayonu qədim tarixə malikdir. Min illər boyu əcdadlarımız bu torpaqda ardıcıl həyat sürüb, zəngin mədəniyyət və dəyərlər sistemi formalaşdırıblar. Bəşər sivilizasiyasının ilkin dövrünün yadigarları olan Oğlanqala, Qazma mağarası, Ovçular təpəsi və Qız qalası kimi qədim yaşayış yerlərində aparılan tədqiqatlar Naxçıvan tarixinin öyrənilməsində yeni mərhələ təşkil edir. Bu gün Şərur rayonunun tarixi sistemli şəkildə tədqiq və təbliğ olunur. Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikilməsi də bu tədbirlərin davamıdır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 20-də Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib. Ali Məclisin Sədri muzeyin yeni binasının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək deyib: Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi ümummilli liderimiz Heydər Əliyevin 1980-ci ildə rayonlarda Tarix-Diyarşünaslıq Muzeylərinin yaradılması haqqında imzaladığı qərara əsasən yaradılıb. Ötən dövrdə muzeyin fondu eksponatlarla zənginləşdirilib. Muzeyin fondunda 7 mindən artıq eksponatın olması Şərur rayonunun qədim tarixə və zəngin mədəniyyətə malik olmasının göstəricisidir. Şərur rayonu ilk insan yaşayış məskənlərindəndir. Rayonda Qazma mağarası, Oğlanqala, Qız qalası, Maxta Kültəpəsi və digər tarixi yerlər bu ərazilərin ilk insan yaşayış məskəni olduğunu sübut edir. Bunun nəticəsidir ki, Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyində bütün tarixi inkişaf dövrlərinə aid eksponatlar mövcuddur.

Ali Məclisin Sədri deyib: "Muzeylər xalqımızın milli mədəniyyət nümunələrini özündə yaşadan müqəddəs yerlərdir. Ona görə də muzeylər daim zənginləşdirilməli, qorunmalı və ziyarət olunmalıdır". Fəaliyyət göstərdiyi dövrdə Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də minlərlə ziyarətçi qəbul etmiş, bu ərazinin tarixi haqqında insanlara ətraflı məlumat verilmişdir. Yaradılan şərait muzeyin fəaliyyətinin daha da genişlənməsinə, eksponatlarla zənginləşdirilməsinə və ziyarətçilərin artmasına imkan verəcəkdir. Bu gün muxtar respublika sakinlərinin təşəbbüsləri ilə evlərdə olan eksponatlar muzeylərimizə təqdim olunur, muzey fondları zənginləşdirilir. Evlərdə saxlanılan eksponatların muzeylərə təqdim olunması tarixi-mədəni irsimizin qorunmasına və daha geniş formada təbliğinə imkan verir.

Ali Məclisin Sədri muzeylərə eksponatlar təqdim edən sakinlərə təşəkkürünü bildirib.

"Milli mədəniyyət nümunələrimiz muzeylərdə qorunaraq gələcək nəsillər üçün saxlanılır", - deyən Ali Məclisin Sədri bildirib ki, muzeylərimiz daim zənginləşdirilməli, qorunmalı, eksponatlar qeydiyyata alınaraq dövrləşdirilməlidir. Eyni zamanda, muzey işçiləri o yerin və muzeylərdəki eksponatların tarixini öyrənməli, gələn ziyarətçilərə ətraflı məlumat verməlidirlər. Xalqımızın qədim və zəngin tarixi vardır. Tariximiz isə muzeylərdə yaşayır. Bu mənada muzeylərimiz həm də qürur mənbəyimizdir. Dövlətimiz tərəfindən muzeylərin fəaliyyəti üçün lazımi tədbirlər görülür, proqramlar qəbul olunur, muzeylər yenidən qurulur və eksponatlarla zənginləşdirilir, muzey işçilərinin maddi rifah halları yaxşılaşdırılır. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də dövlət vəsaiti hesabına qurulub, muzey fonduna yeni eksponatlar daxil edilərək dövrləşdirilib, muzey işçilərinin əməkhaqları artırılıb. Muzey işçiləri də yaradılan şəraitdən düzgün istifadə etməli, muzey işini, rayonun, eləcə də eksponatların tarixini öyrənməli, ziyarətçilərə dolğun və ətraflı məlumat verməlidirlər.



Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə, Şərur rayonunun tarixinin muxtar respublika tarixinin bir hissəsi kimin öyrəniləcəyinə və qorunub saxlanılacağına əminliyini bildirib, muzey işçilərinə fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək deyib ki, muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirləri mədəniyyət sahəsini də əhatə edib. Qədim diyarımızda tarixi abidələrin bərpası, yeni muzeylərin yaradılması, musiqi məktəblərinin inşası, teatrlara və musiqi kollektivlərinə göstərilən diqqət və qayğı bunun bariz ifadəsidir. Ali Məclis Sədrinin mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin bərpası və öyrənilməsi, elmi konfransların keçirilməsi, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi və ev muzeylərinin yaradılması ilə bağlı imzaladığı fərman və sərəncamlar mədəniyyətimizin inkişafına mühüm töhfədir. Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canladırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində də mühüm işlər görülür. Yeni muzeylər yaradılır, muzey fondları zənginləşdirilir və internet saytları istifadəyə verilir. Hazırda muxtar respublikada fəaliyyət göstərən 30 muzeydən 17-si son 20 ildə yaradılıb. Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Natəvan Qədimova göstərilən diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.



Muzeyin direktoru Hüseyn Talıbov deyib ki, tarixi öyrənmək, tədqiq və təbliğ etmək milli varlığı qorumağın əsas şərtidir. Bu gün istifadəyə verilən Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi də qədim yaşayış məntəqəsi olan Şərurun tarixini bu günə daşıyan, qoruyub-saxlayan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsi kimi mühüm əhəmiyyət daşıyır. Yaradılan şərait işimizi günün tələbləri səviyyəsində qurmağa imkan verəcəkdir. Şərur rayonuna xüsusi yaraşıq verən bu gözəl binanı - Rayon Tarix-Diyarşünaslıq Muzeyini yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində şərurlulara böyük hədiyyə kimi qəbul edirik. Hüseyn Talıbov muzey işçiləri və muzeyin gələcək ziyarətçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Sonra muzeyə baxış olub. Məlumat verilib ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan muzeyin birinci mərtəbəsində bələdçi, baş fond mühafizi, zal nəzarətçisi, fond, eksponatların bərpası otaqları, ikinci və üçüncü mərtəbələrdə isə ekspozisiya zalları yerləşir. Muzeydə Şərur rayonunun tarixini, mədəniyyətini, etnoqrafiyasını və təbiətini əks etdirən 7 mindən çox eksponat vardır.

Bərpaçı Məlahət Həsənova muxtar respublikada tarixi-mədəni irsimizin qorunub saxlanılması sahəsində görülən işlərə görə minnətdarlıq edib.

Ekspozisiyada ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şərur rayonuna səfərlərinin fotoları, Naxçıvan Muxtar Respublikasının və Şərur rayonunun inzibati-siyasi xəritəsi sərgilənir. Qazma mağarası, Ovçular təpəsi, Maxta Kültəpəsi, Qız qalası, Qarasu qalası, Oğlanqala abidələrinin fotoları, bu abidələrdən aşkar olunan maddi-mədəniyyət nümunələri - daş süxurlar, obsidianlar, daş, tunc və misdən hazırlanmış əmək alətləri, silahlar, etnoqrafik materiallar, rayon ərazisində istifadə olunmuş sikkələr muzeyin eksponatları sırasında saxlanılır və nümayiş etdirilir. Həmçinin ekspozisiyada XIX-XX əsrlərdə rayon ərazisində istifadə olunmuş məişət əşyaları və kənd təsərrüfatı alətləri, Şərur rayonun kəndlərində, o cümlədən Günnütdə toxunmuş xalçalar, Şərurun tanınmış şəxsiyyətləri və şəhidləri haqqında məlumatlar və fotolar, "Şərur" Xalq Yallı Ansamblının qazandığı mükafatlar, Şərur rayonuna aid kitab və qəzetlər də ziyarətçilərə təqdim edilir.



Binanın zirzəmisində qazanxana, fond və texniki otaqlar vardır. Binada fərdi qazanxana quraşdırılıb, həyətdə abadlıq işləri aparılıb, müasir işıqlandırma və suvarma sistemləri qurulub. Ali Məclisin Sədri muzey fondunun və ekspozisiyanın zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar verib.

Sosial qayğıya ehtiyacı olanlara mənzillər və minik avtomobili təqdim olunub

Dekabrın 20-də Şərur rayonunda sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə və 1 hərbi xidmət dövrü əlilinə mənzil təqdim olunub, 1 Çernobıl əlilinə isə "NAZ-Lifan 320" markalı minik avtomobili verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə mənzil və avtomobillə təmin olunanlara təşəkkürünü bildirib, onlara yeni mənzillərində rahat və firavan həyat arzulayıb, mənzillərin orderlərini və avtomobilin açarını təqdim edib.

Mənzillə təmin olunan Azərbaycan Vətən Müharibəsi iştirakçısı Nazim Cavadovun ailə üzvü Gözəl Cavadova deyib: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu biz gündəlik həyatımızda hiss edirik. Vətənimizin müdafiəsi zamanı sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən hər zaman yüksək diqqət və qayğı göstərilir. Müharibə əlilləri, şəhid ailələri mənzillə təmin olunur, onlara minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Muxtar respublikada yaradılan şəraitin nəticəsidir ki, çox rahat yaşayırıq. Ailəmizin mənzillə təmin olunacağını eşidəndə çox sevindik. Gözəl Cavadova bayram ərəfəsində onları gözəl şəraitli mənzillə təmin etdiyinə görə Ali Məclisin Sədrinə müharibə əlilləri və şəhid ailələri adından dərin minnətdarlığını bildirib, qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarını Həmrəyliyi Günü və Yeni İl bayramı münasibətilə təbrik edib.

Mənzillə təmin olunmuş Əziz İbrahimov, Şahin Abdullayev və Sənan Rəhimov, eləcə də avtomobil təqdim edilən Sadiq Rzayev də ailə üzvləri adından minnətdarlıq ediblər.

2 və 3 otaqlı tam təmirli mənzillər rayonun İbadulla və Dəmirçi kəndlərində, eləcə də Şərur şəhərində yerləşir. 4 mənzilin hər birində lazımi kommunal-məişət şəraiti yaradılıb. Yeni mənzillə təmin olunanlara xalça hədiyyə olunub.





# YAP-da "Dayanıqlı İnkişaf Məqsədləri gənclər üçün" adlı tədbir keçirilib








***Dünən Yeni Azərbaycan Partiyasında "Dayanıqlı İnkişaf Məqsədləri (DİM) gənclər üçün" adlı tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirin əvvəlində DİM-lə bağlı Azərbaycanda görülən işlərə dair film nümayiş olunub.***

Tədbirdə Azərbaycanda keyfiyyətli təhsilin təmin olunması ilə bağlı çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, hər bir ölkənin inkişafını təmin edən onun intellektual potensialıdır və bu potensialın formalaşmasında keyfiyyətli təhsilin mühüm rolu var. F.Qurbanov bildirib ki, təhsillə bağlı dünya göstəricilərinə nəzərə saldıqda vəziyyət ürəkaçan deyil: "Dünyada 262 milyon yeniyetmə məktəbə getmir. Məktəb yaşında qaçqınların sayı 4 milyondur və onlardan 2 milyonunun məktəbə getmək imkanı yoxdur, 7 milyon nəfər oxumağı və yazmağı bacarmır".

Azərbaycanda təhsil haqqında danışan F.Qurbanov diqqətə çatdırıb ki, ölkəmizdə təhsilə çox böyük diqqət yetirilir: "Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə təhsilə böyük diqqət yetirirdi. Bu siyasət bu gün də davam edir. Təhsilin infrastrukturunun və keyfiyyətinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Son 10 ildə Azərbaycanda 3 200 orta məktəb inşa edilib və əsaslı təmir olunub, bir milyondan çox şagirdin təhsil şəraiti yaxşılaşdırılıb və bu proses davam edir".

Ucqar kəndlərdə məktəblərin vəziyyətinə toxunan nazir müavini bildirib ki, təhsilin keyfiyyətinin artırılması məqsədilə son bir neçə ildə 237 modul tipli məktəblər tikilib istifadəyə verilib: "Azərbaycanda məktəblər ən müasir avadanlıqalarla təmin olunub. Son illərdə müəllimlərin imtahandan keçməsi təhsilin inkişafını təmin edir". F.Qurbanov söyləyib ki, Azərbaycanda yüksək bal toplayan abituriyentlərin sayı da artmaqdadır. Nazir müavini vurğulayıb ki, xaricdə təsillə bağlı dövlət proqramları həyata keçirilir və bu proqram çərçivəsində xeyli sayda gənclərimiz dövlət hesabına xaricdə təhsil alıb.

Daha sonra çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli qeyd edib ki, Azərbaycan dünya ictimaiyyətinin ən məsuliyyəti üzvlərindən biri kimi DİM-ləri qəbul edib: "DİM-lərin gənclərlə bağlılığı böyükdür. Bunlardan biri də hər kəsə layiqli əməyin təmin olunmasıdır".

Nazir müavini vurğulayıb ki, ümumilikdə məşğulluqla bağlı dünyada vəziyyət ürəkaçan deyil. "Dünyada texnologiyaların inkişafı nəticəsində 100 milyondan artıq insan öz işlərini itirib. Azərbaycanda bu sahədə bir sıra nailiyyətlər əldə olunub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkədə işsizlik və yoxsulluq 5 faizə endirilib, son 15 ildə ölkədə 2 milyondan artıq iş yerləri yaradılıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib ki, Azərbaycanda DİM-lərin həyata keçirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir, müvafiq qanunlara əlavə və düzəlişlər edilir. Parlament DİM-lərlə bağlı müntəzəm olaraq tədbirlər keçirir, qanunlara əlavə və düzəlişlər edir.

Daha sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirib ki, dünyada ibtidai təhsil yaşına çatan, lakin təhsil almaq imkanı olmayan uşaqların 50 faizi münaqişə ocaqlarının payına düşür. S.Orucov vurğulayıb ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb: "Lakin ölkə rəhbərliyi tərəfindən görülən tədbirlər nəticəsində qaçqın və məcburi köçkün uşaqların ibtidai təhsilə getməsi ilə bağlı 100 faizlik nəticə əldə olunub. Azərbaycan bu istiqamətdə dünyanı qabaqlayır və bu da dövlət başçısı tərəfindən həyata keçirilən təhsil, sosial siyasətin məntiqi nəticəsidir".

YAP Gənclər Birliyinin sədri qeyd edib ki, dünyada hər il 3.1 milyon insan düzgün qidalanmadıqlarına görə dünyasını dəyişir, 767 milyon nəfər yoxsulluq səviyyəsində yaşayır. S.Orucov əlavə edib ki, Azərbaycanda səmərəli məşğulluğun təmin edilməsi üçün mühüm tədbirlər həyata keçirilir. Digər çıxışçılar da DİM-lərin həyata keçirilməsinin vacibliyi və bu istiqamətdə görülən işlər haqqında danışıblar.

# Maqsud Şeyxzadənin 110 illik yubileyi qeyd edilib




Dünən "Kaspi" qəzeti, "Kaspi" Təhsil şirkəti, Azərbaycan Mətbuat Şurası və Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə şair, dramaturq Maqsud Şeyxzadənin 110 illik yubileyinə həsr olunan tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə "Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, media kapitanları,



jurnalistlər, QHT rəhbərləri və digərləri iştirak ediblər.

Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov çıxış edərək bildirib ki, Maqsud Şeyxzadə Özbəkistan ədəbiyyatının klassikidir: "O şair, yazıçı, dilçi alim, ədəbiyyatşünas olmaqla yanaşı, həm də dramaturqdur. Onun əsərləri bu gün teatrlarda səhnələrə qoyulur". Ə.Amaşov söyləyib ki, M.Şeyxzadənin azərbaycanlı olması bizi ona daha da yaxınlaşdırır: "İbtidai məktəbi Ağdaşda bitirən Maqsud daha sonra Bakı Pedaqoji Məktəbində təhsilini davam etdirib. Təhsilini bitirəndən sonra o, iki il Dağıstana göndərilir. Dağıstanda baş verən hadisələrdə iştirak etdiyi üçün Maqsud Özbəkistana sürgün edilir. 1967-ci ildə dünyasını dəyişən Maqsud Şeyxzadə qısa ömrünü Özbəkistan ədəbiyyatının inkişafına həsr edir".

Filmin təqdimatından sonra çıxış edən "Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva qonaqları salamlayaraq Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzin fəaliyyətindən söz açıb: "Özbəkistanda böyük Tərcümə Mərkəzi yaradılıb. Mərkəzin fəaliyyəti nəticəsində Azərbaycan əsərləri özbək dilinə, özbək əsərləri Azərbaycan dilində tərcümə edilərək tanıdılır".

Özbək ziyalılarının Azərbaycan ədəbiyyatına münasibətindən söz açan S.Vəliyeva söyləyib ki, müsbət münasibətin yaranması Maqsud Şeyxzadə kimi şəxslərin fəaliyyəti nəticəsində olub: "Maqsud Şeyxzadə bu gün tədqiq olunmağa, bütün dillərə tərcümə olunmağa layiq bir ziyalıdır. Belə şairlər bölünmür, onlara bizim, sizin deyilmir. Maqsud Şeyxzadə çox böyük keyfiyyətlərə malik idi. O, Özbəkistandan aldığı müsbət enerji sayəsində mühüm əsərlər ortaya qoyub. Bu gün biz özbək ziyalılarına Maqsud Şeyxzadəyə Özbəkistanda ev şəraiti yaratdıqlarına görə təşəkkür edirik. Məhz bunun nəticəsində Maqsud Şeyxzadə səmərəli iş ortaya qoya bilib".

Tədbirin davamında çıxış edən Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov deyib ki, mərkəz Özbəkistanda fəaliyyətini Azərbaycan mədəniyyətini təbliğinə həsr edib: "Bu gün Şeyxzadənin ruhu çox şaddır. Çünki onun 110 yaşını Vətəni Azərbaycanda qeyd edirik".

Qardaş Özbəkistanın tarixində azərbaycanlılar böyük rol oynadığını dilə gətirən qurum rəhbəri bildirib ki, bu gün Özbəkistan xalqı onların fəaliyyətlərini yüksək qiymətləndirir: "Şeyxzadənin bir çox əsərləri özbək ədəbiyyatşünaslığında tədqiq edilir, öyrənilir. Azərbaycanda doğulan, lakin repressiya qurbanı olaraq Özbəkistana gələn Şeyxzadə çox böyük işlər ortaya qoyub. O Tərcümə Mərkəzi yaradaraq bu istiqamətdə xidmətləri ilə tarixə düşüb. Vətən həsrəti ilə yaşayan Şeyxzadə öz şeirlərində bunu əks etdirib. Azərbaycana bu tədbirin həyata keçirilməsinə görə təşəkkür edirəm. Son iki ildə "Kaspi" qəzeti, "Kaspi" Təhsil Şirkətinin dəstəyi ilə iki kitab çap etmişik".

Tədbirin davamında çıxış edənlər Maqsud Şeyxzadənin fəaliyyətini yüksək qiymətləndirərək, onu həm Azərbaycanın, həm də Özbəkistanın iftixarı adlandırıblar. Sonda "Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva və Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov Özbəkistandan gələn qonaqları təltif ediblər.

# "Gənclər siyasəti bütün dünya dövlətlərinə bir nümunədir"



"Azərbaycanın gənclər siyasəti bütün dünya dövlətlərinə bir nümunədir. Biz artıq dünya dövlətlərindən nümunə götürən yox, dünya dövlətlərinə nümunə göstərilən bir dövlətə çevrilmişik. Təbii ki, cənab Prezidentin aparmış olduğu gənclər siyasəti bunun bir bariz nümunəsidir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

"Bildiyiniz kimi, 2018-ci ildə Gənclər Forumu keçirildi. Azərbaycanın bütün regionlarında keçirilən bu tədbir sonda paytaxt Bakıda Forumla yekunlaşdı. Gənclər nələr istəyirlər? Onlar Azərbaycanın gənclər siyasətində nələri görmək istəyirlər? Məhz bununla bağlı onlar öz təkliflərini yazıb bildirdilər. Cənab Prezident bunlara adekvat reaksiya verir. Bu il Azərbaycanda Gənclər Fondunun Prezident İlham Əliyevin təşəbbüsü ilə yenidən təsis olunması və səlahiyyətlərinin artırılması, sosial qayğıya ehtiyacı olan insanların təhsil haqqlarının ödənilməsi, xaricdə elmi-tədqiqat işləri aparmaq istəyən gənclərə qrantların verilməsi və gənclərə arzularını, təşəbbüslərini reallaşdırmaq üçün imkanlarının artırılması göz önündədir. Eləcə də idman, elm, təhsil sahəsində bizim bir çox nailiyyətlərimiz olub. Cənab Prezidentin Azərbaycan gənclər siyasətinə vermiş olduğu töhfə və diqqət, qayğı artıq öz bəhrəsini verməkdədir"-deyə, YAP GB sədri fikrini tamamlayıb.

# Londondakı "Hampton Court" kral sarayında "Alxan" ləqəbli Qarabağ atının heykəlinin açılışı olub



Dekabrın 19-da Londonda start götürən Olimpiya Beynəlxalq Atçılıq Şousu çərçivəsində "Hampton Court" Kral Sarayının ərazisindəki atçılıq mərkəzində "Alxan" ləqəbli Qarabağ atının tuncdan hazırlanmış heykəlinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti Elçin Quliyev, Kral sarayının rəhbəri Lord Vestey, Kraliça atçılıq mərkəzinin rəhbəri Tobi



Brouni, Vindzor At Şousunun direktoru Simon Bruks Vard, Şounun departament müdiri Sara Ruterford Couns və digər şəxslər iştirak ediblər.

Lord Vestey 2012-ci, 2016-cı və 2018-ci illərdəki Vindzor Kral At şoularına böyük dəstəyinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Eyni zamanda, Kraliça II Elizabetin hədiyyəyə görə dərin təşəkkürünü çatdıraraq, heykəlin yerinin məhz Kraliça tərəfindən seçildiyini qeyd edib.

ARAF-ın prezidenti Elçin Quliyev Azərbaycan Prezidenti İlham Əliyevin dəstəyi sayəsində son illər Qarabağ atlarının dünyada şöhrətinin və nüfuzunun artdığını, Böyük Britaniya ilə respublikamız arasında müvafiq sahədə əməkdaşlığın beynəlxalq miqyasda atçılıq idmanının inkişafına ciddi töhfə verdiyini, bu münasibətlərin ildən-ilə daha da genişlənməsindən məmnunluğunu ifadə edib.

Xatırladaq ki, Qarabağ atlarının cari il mayın 10-13-də Kral Vindzor At Şousunun 75 illik yubileyinə və Britaniya Kraliçası II Elizabetin doğum gününə həsr olunmuş tədbirlərdə möhtəşəm şou proqramları böyük coşqu və heyrətlə qarşılanıb. ARAF-ın nümayəndə heyəti Böyük Britaniya Taxt-Tacının sahibi Ülyahəzrət Kraliça II Elizabetin doğum günü münasibətilə "Alxan" ləqəbli Qarabağ atının tuncdan hazırlanmış heykəlini hədiyyə edib.

Dekabrın 21-də Azərbaycan nümayəndə heyəti Olimpiya Beynəlxalq At Şousunda möhtəşəm proqramla çıxış edəcək. ARAF-ın hazırladığı proqram "Odlar Yurdu Azərbaycan və Qarabağ atı" adlanır. Həyəcanverici bu proqram Dövlət Sərhəd Xidmətinin Qarabağ atları üzərində nümunəvi hərəkətlər yerinə yetirən süvarilər dəstəsinin və rəqs ansamblının çıxışlarından ibarət olacaq.

London Mərkəzindən 19 kilometr məsafədə yerləşən "Hampton Court" Kral sarayının inşasına 1515-ci ildə başlanılıb. Saray Kral VIII Henrinin yaxın əyanlarından olan kardinal Tomas Volsi üçün tikilib. Bu möhtəşəm imarət Böyük Britaniyanın qədim saraylarından biridir. Britaniyanın ən qədim atçılıq mərkəzi məhz bu sarayın ərazisində yerləşir. 1528-ci ildə qurulan mərkəz bu gün Kraliçaya məxsus atların yetişdirilməsi, təlimlərinin keçirilməsi və saxlanması üçün fəaliyyət göstərir.

ARAF Böyük Britaniyanın ən məşhur atçılıq tədbirlərindən olan Vindzor At şoularının 2012-ci ildən etibarən iştirakçısı olub. Həmin il üç Qarabağ atı və rəqs qrupu ilə çıxış edən heyət 1956-cı ildən sonra ilk dəfə sarayda qəbul edilən nümayəndə heyəti olub. 1956-cı ildə ilk dəfə "Zaman" ləqəbli Qarabağ atı Böyük Britaniya Kraliçası II Elizabetin doğum günü münasibətilə ona hədiyyə edilib. Gözəlliyi və hərəkətləri ilə hamını valeh edən Qarabağ atları son illər Kraliçanın doğum günü tədbirlərinin mütləq iştirakçısına çevrilib.

ARAF-ın təşkilatçılığı ilə Qarabağ atları 2016-cı ildə Kraliça II Elizabetin 90 illik yubiley tədbirlərində möhtəşəm şou proqramla dünyanı bir daha heyran edib.

# Şəhid anası: Birdəfəlik ödəmələrin verilməsi şəhid ailələrinə göstərilən diqqətin növbəti təzahürüdür



Şəhid ailələrinə dövlətimiz tərəfindən daim yüksək qayğı göstərilir. Prezidentimizin Fərmanı ilə birdəfəlik ödəmələrin verilməsi ölkəmizdə şəhid ailələrinə göstərilən diqqətin növbəti təzahürüdür. Bu sözləri AZƏRTAC-ın bölgə müxbiri ilə söhbətində Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş Tərtər şəhər sakini şəhid Fəxrəddin Məmmədovun anası Qənirə Məmmədova deyib.

Fəxrəddin Məmmədov orduya yaşı çatmasa da, özünümüdafiə batalyonlarında əsgərlərimizə kömək göstərib. 18 yaşı tamam olanda isə hərbi xidmətə yollanıb. Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə fəal iştirak edib. 1993-cü ildə Vətənimizin müdafiəsi uğrunda gedən döyüşlərin birində şəhid olub. "Şəhidlərin xatirəsi xalqımız tərəfindən əziz tutulur. Şəhid ailəsi olaraq dövlətin qayğısını daim hiss edirik. Bir çox imtiyazlardan faydalanırıq. Dövlət başçımızın şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsinə dair imzaladığı Fərmana əsasən, bizim ailəyə də 11 min manat məbləğində birdəfəlik ödəmə olunub. Bir şəhid anası kimi belə bir humanist addıma görə Prezident İlham Əliyevə minnətdaram", - deyə Qənirə Məmmədova bildirib.

# GÜCLÜ XALQ, GÜCLÜ DÖVLƏT, GÜCLÜ LİDER VƏHDƏTİ

Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Çünki liderlik amili elə şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Məhz bu kimi önəmli faktorun təhlilini apararkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorunda Prezident İlham Əliyev LİDERLİYİ amili mövcuddur. Artıq 15 ildən çoxdur ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində, perspektiv baxımdan, əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir. Məhz Prezident İlham Əliyevin, son illər ərzində, həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin və Onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti sayəsində davamlı inkişafın və tərəqqinin şahidinə çevrilib. Bu baxımdan, hazırda müasir beynəlxalq münasibətlər sistemində söz sahibi olan, planetimizin müxtəlif bölgələrində münaqişələrin, siyasi kataklizmlərin, kollapsların müşahidə olunduğu, həmçinin, aparıcı ölkələrin iqtisadi və maliyyə böhranından



*MUXTAR NAĞIYEV,*
*YAP Səbail rayon təşkilatı sədrinin birinci müavini*



əziyyət çəkdiyi bir dövrdə yüksələn xətlə inkişaf edən müstəqil Azərbaycan Respublikası xalqımızın tarixi nailiyyəti, ən böyük sərvətidir və qürur mənbəyidir!

### Çevik, qətiyyətli və düzgün qərarlar qəbul edən Prezident

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir"- deyən dövlət başçısının, ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar ölkə Prezidentinin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini və gerçəkliyə adekvat olduğunu göstərmişdir.

O da sirr deyil ki, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə yeni meyarlar üzərində formalaşmış mütərəqqi idarəçilik ənənələrinin, məhz bu sistem hüdudlarında püxtələşən, Dahi Öndər Heydər Əliyev siyasi xəttini dönmədən davam etdirməyə qadir, peşəkar, intellektual səviyyəli, dünya miqyasında cərəyan edən proseslərin mahiyyətini duyan praqmatik Lider tərəfindən davam etdirilməsi Azərbaycanın iqtisadi və geosiyasi durumundan irəli gələn tələbat olmuşdur.

Həmçinin, dövlətimizin başçısı bu müddətdə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir vətəndaşın marağına cavab verən, cəmiyyət həyatının ən müxtəlif sahələrində uğurlu nəticələrə yol açan çevik, qətiyyətli və düzgün qərarlar qəbul etmişdir. Dövlət başçısı İlham Əliyevin zamanla səsləşən idarəçilik üslubunda diqqəti çəkən üstün cəhət, məhz bundan ibarətdir ki, ölkə başçısı mövcud reallığı obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal, düzgün qərarlar qəbul etməyi, habelə, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır. Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsini dərindən mənimsəmiş Prezident İlham Əliyev Ulu Öndərimizin möhkəm təməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini davam etdirmək üçün zəruri liderlik keyfiyyətlərinə malikdir. Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə, toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin fenomen siyasi lider obrazını şərtləndirən mühüm elementlər sırasında xüsusi vurğulana bilər.

### Bütün problemlərə milli dövlətçilik prinsipləri kontekstindən yanaşan alternativsiz dövlət başçısı

Geridə qalan müddətdə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə vacib amil olan ictimai-siyasi sabitlik qorunub-saxlanılmış, vətəndaş sülhünə və həmrəyliyinə, qanunun aliliyinə xidmət edən mükəmməl konsepsiyanın həyata keçirilməsində tamamilə yeni mərhələnin əsası qoyulmuşdur. Onun ötən dövr ərzində inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük uğurla həyata keçirdiyi islahatlar həm də onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi dəyərləndirilə bilər. Ölkənin bütün problemlərinə milli dövlətçilik prinsipləri kontekstindən yanaşan, cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını dəqiq şəkildə qiymətləndirməyi bacaran, eyni zamanda, ictimai həyatın müxtəlif sahələrindəki çətinliklər və nöqsanlar haqqında aydın təsəvvürə malik olan Prezident İlham Əliyev, məhz bu keyfiyyətləri sayəsində yeni dövr üçün qarşıda duran prioritet vəzifələri, dəqiq şəkildə müəyyənləşdirməyə müvəffəq olmuşdur. Azərbaycan Prezidenti, həmçinin, bəyan etmişdir ki, müasir dünyada iqtisadi inkişaf potensialı hər bir dövlətin gücünü müəyyən edən başlıca amil kimi çıxış edir. Ölkə başçısı İlham Əliyev xüsusi qeyd etmişdir ki, ölkənin və xalqın bütün problemlərinin, sosial çətinliklərin aradan qaldırılmasından tutmuş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinədək hər bir maneənin dəf edilməsinin ən optimal yolu, məhz iqtisadi tərəqqidən keçir. Dinamik inkişafda olan iqtisadiyyat sabitlik, əmin-amanlıq, demokratiya və vətəndaş cəmiyyəti, milli təhlükəsizlik, effektiv xarici siyasət deməkdir. Təsadüfi deyildir ki, həm Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyəti illərində, həm də Azərbaycan Prezidenti İlham Əliyevin sonrakı üç illik fəaliyyəti dövründə əsas ağırlıq mərkəzi bu sahənin üzərinə salınmışdır.

Beləliklə, güclü, mobil və yüksək iş qabiliyyətli komandaya malik olan dövlət başçısı hökumət qarşısında duran prioritet vəzifələri düzgün müəyyənləşdirməklə, yeni dövrün ən səciyyəvi cəhəti kimi, ilk növbədə, milli iqtisadiyyatda struktur dəyişikliklərinə nail olmağın, kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyin zəruriliyini önə çəkmişdir. "Bizim hamımızın vəzifəmizdir ki, ölkədə bu siyasəti davam etdirək, əldə olunan uğurları artıraraq və hərtərəfli inkişaf üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməl üzərində müasir Azərbaycan yaradaq " - deyən ölkə Prezidenti İlham Əliyev imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə və işləkliyinə nail olmuşdur.

### Sosial-iqtisadi sahədə qazanılan uğurlar, inamla həyata keçirilən qlobal layihələr...

Prezident İlham Əliyevin sosial məsuliyyət prinsipinə ciddiliklə riayət edərək, fəaliyyəti ilə bağlı vaxtaşırı xalq qarşısında hesabat verməsi, Onun müstəqil dövlətçilik tariximizdə əsasını qoyduğu xoş ənənələrdən birinə çevrilmişdir. "Biz xalqın xidmətçiləriyik " - deyən Prezident İlham Əliyev özünün də, sıravi vətəndaşlarla ünsiyyətdə söylədiyi kimi, komandasının hər hansı üzvünün tutduğu vəzifəyə nə dərəcədə layiqliyini Onun xalqa göstərdiyi xidmətlə müəyyənləşdirir.

Prezident İlham Əliyev sosial-iqtisadi inkişafa xidmət edən kompleks tədbirlərlə yanaşı, respublikamızın beynəlxalq əməkdaşlığında mühüm rol oynayan transmilli layihələrin gerçəkləşdirilməsi məsələsini də xüsusi diqqət mərkəzində saxlamışdır. Sosial-iqtisadi sahədə qazanılan uğurlar, inamla həyata keçirilən qlobal layihələr Azərbaycanı həm də beynəlxalq əməkdaşlıq mərkəzinə çevirməklə, onun xarici siyasətdə və diplomatiya sahəsində mühüm uğurlar qazanmasını təmin edir. Ötən üç ildə əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış, milli maraqları özündə ehtiva edən xarici siyasət kursunu inamla davam etdirən Azərbaycan Prezidenti bu doktrinanı yeni taktiki gediş və manevrlərlə zənginləşdirmişdir.

Azərbaycanda həyata keçirilən dövlət siyasətinin üstün istiqamətlərindən biri də vətəndaş cəmiyyəti institutlarını möhkəmlətmək, siyasi plüralizm, demokratikləşmə prosesini dərinləşdirmək, bu yöndə Qərbə inteqrasiya - Avropa Şurası, Avropa İttifaqı və ATƏT kimi mötəbər təşkilatlarla əməkdaşlıq xəttini davam etdirməkdən ibarətdir. Demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində qazandığımız uğurlar, Prezident İlham Əliyevin bu sahədə yeritdiyi siyasət beynəlxalq birlik tərəfindən təqdir olunur, dünyanın aparıcı siyasi mərkəzləri, təşkilatları tərəfindən müsbət qiymətləndirilir. Böyük müdrikliklə tətbiq edilən balanslaşdırılmış xarici siyasət nəticəsində, bu gün Azərbaycan öz haqq sözünü BMT-nin, ATƏT-in, Avropa İttifaqının, Avropa Birliyinin, Avratlantika Tərəfdaşlıq Şurasının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin və digər nüfuzlu beynəlxalq qurumların tribunasından bütün dünyaya çatdırmaq imkanlarına malikdir.

Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli mənafelərinə və beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətindəki diplomatik fəaliyyətini də xüsusi vurğulamaq lazımdır. Xüsusilə, aprel müharibəsindən sonra Onun işğalçılara qarşı səsləndirdiyi bəyanatlarından da göründü ki, Azərbaycan heç vaxt öz torpaqlarının işğal faktı ilə barışmayacaq. Prezidentin səngərlərdə əsgərlərlə görüşləri, eləcə də, cəbhə xəttində yaşayan sadə vətəndaşlar qarşısındakı çıxışları hər bir azərbaycanlını sevindirir, qürrələndirir!

### Milli birliyin möhkəmləndirilməsində milli həmrəylik faktoru

Prezident İlham Əliyev bütün xarici səfərlərdə və görüşlərdə bu problemi ön plana çəkir, ölkəmizin haqlı mövqeyini bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırır. Dövlət başçısı problemi Azərbaycanın ümdə maraqları qorunmaqla, beynəlxalq hüquq və normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə edəcəyini dəfələrlə vurğulamışdır. Nəticədə, rəsmi Bakının münaqişə ilə bağlı mövqeyinin getdikcə güclənməsi müşahidə olunur və bunu dövlət başçısı İlham Əliyev də razılıqla bildirmişdir. Ən əsas amil isə, təvazökarlığı həyat tərzinə çevirən Prezident İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. O, hər bir vətəndaşının problemini öz problemi, qayğısını öz qayğısı kimi qəbul edir və məhz buna görə, iştirak etdiyi bütün seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini və etimadını qazanır. O, dəfələrlə sübut edib ki, parlaq zəkası, peşəkar idarəçilik qabiliyyəti və praqmatik yanaşması ilə Azərbaycanı daha böyük zirvələrə aparacaq.

Bizlər də Prezident İlham Əliyevi bu münasibətlə təbrik edir, Ona can sağlığı, davamlı uğurlar və daha böyük zirvələri fəth edən qələbələr arzulayırıq!




## "Sarıjiletlilər" niyə Parisdən başladı?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Bəzən oturub fikirləşəndə, adamın ağlına belə bir fikir gəlir ki, bu dünyanı idarə edənlər ya axmaqlar yığnağıdır, ya da planetdə yaşayan insanları axmaq yerinə qoyublar. Deyəsən, elə ikinci versiya daha real görünür indiki vaxtda. Dünya siyasətində öz iddialarını gerçəkləşdirmək istəyənlər, ağıllarına gələn axmaq adlarla "inqilablar" ixrac edir, avam kütləni əllərində olan kütləvi medianın əli ilə qızışdırıb küçələrə salır, sonra da qıraqda oturub, bu fəlakət dolu "ssenariləri-ni" fransız şərabı içə-içə, ləzzətlə seyr edirlər. Bu gün istənilən axmaq ideyanı kütlənin gözündə "qiymətə mindirmək" üçün iki şey lazımdır: Pul və reklam, vəssalam!***

Adlara diqqət edin: "Ərəb baharı", "narıncı inqilab", nə bilim "qızılgül inqilabı". Axı ərəbin baharı olmur, "cənablar"! Nə coğrafi baxımdan, nə də məntiq baxımından. Həmişə cəhənnəm istisinin od saçdığı ərəb torpaqlarında bir damcı yağış suyu belə heyrət doğurur. Bu torpaqlarda bahar nə gəzir? Hələ o ki qala, ərəbin haqq və azadlığı üçün inqilab etmək fikrinə düşməyi. Gör Qərbdəki strateqlər nə qədər özlərinə əmindirlərsə, üzdə olan acınacaqlı və savadsız səhvə yol verdiklərini belə veclərinə almırlar. Ərəb, demokratiya, ictimai etiraz... Türklər demişkən, bunların "nə aləqəsi?"

Görünür, ərəb ölkələrini sovurmaq istəyənlər, Səddam Hüseynin, Müəmmar Qəddafinin, Hüsnü Mübarəkin tonlarla qızıl külçələrini ələ keçirmək üçün o zaman elə tələsiblər ki, məntiqi atıblar bir qırağa. Əslində, məntiqi onların nəyinə gərəkdir ki? Kim idi axı onları dayandıran? - Əslində, heç kim. Bu yalançı "BAHARLAR", ərəblərə ancaq acınacaqlı günlər, tayfa davaları, bombalardan, güllə qəlpəsindən canını qurtarmaq üçün qucağındakı körpə ilə Avropaya sığınmaq, hər gün təhqir olunaraq, bir parça qara çörəklə gün keçirmək kimi ölümcül miqrant "HƏYATI" bəxş etdi!

Vaxtilə Bağdadda Səddam Hüseynin heykəlini ipə keçirib bayram edənlər, sonradan arvad-uşaqları ilə bir yerdə Amerika əsgərlərinin itlərinə yem oldular, vəssalam. Al, bu da sənə "BAHAR"!

İndi də əvvəlcə Parisdə, sonra da Belçika və Hollandiyada "sarıjiletlilər" ortaya çıxıblar. Məqsədləri də sadədir: sosial etirazlar! Vergi və benzinin qiymətinin qalxmasına etiraz edir "sarıjiletlilər". Avropanın 70-ci illərdən qalan problemləri parisi cəhənnəmə çevirib. Sonrası da sap kimi düzülür ard-arda. Küçə toqquşmaları, maşınların yandırılması, kütləvi çaxnaşmalar. Emmanuel Makron kimi olduqca iradəsiz və zəif birisinin Yelisey Sarayında oturması da, "sarıjiletlilər" üçün əlavə meydan açır. E.Makron, qız dostunun anası, özündən düz 10 yaş böyük olan həyat yoldaşı Bricit xanımla bir də ayılıb ki, bəs Parisi "sarıjiletlilər" başına götürüb. E.Makron da atır bütün günahları 70-80-ci illərdəki Fransa başbilənlərinin üstünə. Vergi sektorundakı bütün "zibillər"i, sən demə, onlar yaradıblar. Bəs sonra gələnlər, onlar günahkar deyillərmi? Yaşlı xanımlara özəl simpatiyası olan E.Makron "sarıjiletlilər" qarşısında aciz durumdadır. Onun hökuməti bu sosial etirazları aradan qaldıracaq bir proqrama belə sahib deyil.

Açıq-aşkar görünür ki, E.Makron Fransanı idarə edəcək gücdə və səviyyədə olan xarizma sahibi deyil. Üstəlik, onun həddən artıq qabarıq olan erməni sevgisi, Ermənistanın xeyrinə birtərəfli təbliğat ruporunun öndə gedən "aktyoru" rolunda çıxış etməsi, rəsmi Parisi də çıxılmaz vəziyyətə salıb. Çünki necə də olsa, buna qədərki Fransa rəhbərləri heç vaxt erməni "kartına" bu qədər açıqlıq nümayiş etdirməyiblər və regionun əsas iqtisadi lokomotivi olan neft-qaz Bakısı ilə bu şəkildə üz-üzə gəlməyi gözə almayıblar.

Azərbaycan kimi vacib strateji iqtisadi hegemoniya ilə ac-yalavac Ermənistan xatirinə, üz-göz olmaq E.Makronun xarici siyasətdəki ilk ciddi səhvlərindəndir. Üstəlik, nəzərə alanda ki, Fransa da Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupunda "vasitəçi həmsədrlərdəndir", onda, bilmədən də olsa, Emmanuel Fransanın ikili siyasətini də açıq şəkildə ifşa edir. Bir sözlə, E.Makron Fransa qarışıq Qərb diplomatiyasının ikili siyasətini corab ipi kimi "sökür". "Sarıjiletlilər" Parisi sökən kimi...

# Azərbaycan dövlətinin sosial siyasətinin mərkəzində insan amili dayanır

***Azərbaycanda əhalinin sosial rifahının daha da yüksəldilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Ölkəmizdə həyata keçirilən sosial proqramlar, qəbul olunan qanunlar, görülən işlər bunu deməyə əsas verir.***

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" son imzaladığı Sərəncam bir daha göstərdi ki, ölkəmiz həyata keçirilən sosial siyasətin əsas istiqamətini vətəndaşlarımızın rifah halı dayanır.

Bəs ölkəmizin öndə gedən mətbuat orqanlarının rəhbərləri bu haqda nə düşünür?

## "Büdcəmizin həcmi artdıqca Azərbaycanda sosial proqramların həcmi artır"



Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli bildirib ki, ölkəmizdə sosial sahəyə verilən önəm uzun illərin strategiyasıdır: "Bu sahəyə verilən önəm Ulu Öndər Heydər Əliyevin Azərbaycana hakimiyyətə qayıdışından sonra başlayıb. Dövlətin iqtisadi bazası gücləndikcə, iqtisadi imkanlar genişləndikcə və büdcəmizin həcmi artdıqca, Azərbaycanda sosial proqramların həcmi artırılır".

Onun sözlərinə görə, söyləyib ki, cəmiyyətdə elə bir sosial təbəqə yoxdur ki, bu qayğılardan kənarda qalsın: "İlk öncə imtiyazlı təbəqələr, qazi ailələri, Azərbaycanın bütövlüyü, müstəqilliyi uğurunda şəhid olanların ailələri, hərbçilər, elm xadimləri, səhiyyə işçiləri, jurnalistlər, ümumiyyətlə hazırda mövcud olan və dövlət üçün faydalı olan hər bir kəs üçün ölkəmizdə sosial proqramlar həyata keçirilir. Bu sırada imkansızlar da nəzərdə tutulur".

Ötən gün Azərbaycan Prezidenti tərəfindən aztəminatlı ailələrə birdəfəlik yardımla bağlı imzalanan sərəncamı xüsusi vurğulayan MŞ-nın sədr müavini qeyd edib ki, bütün bunlar Azərbaycanda belə proqramların daimi olduğunu göstərir: "Ölkəmizdə imkansız, yoxsulluq həddində olan, əmək qabiliyyəti aşağı olan insanlar üçün daimi proqramlar keçirilir ki, bunları qeyd etməmək mümkün deyil".

M.Ələsgərli deyib ki, il ərzində Azərbaycanda milli bayramlar ərəfəsində ölkəmizdə hər zaman əhalini sevindirəcək sosial proqramlar həyata keçirilir ki, ötən gün imzalanan sənəd onlardan biri idi.

## "Həyata keçirilən geniş layihələr çərçivəsində aztəminatlı ailələrin problemlərinin həllinə dəstək verilir"



"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu qeyd edib ki, Prezident İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" imzaladığı Sərəncam hər şeydən öncə ölkə başçısının Azərbaycan vətəndaşlarının rifahını və layiqli həyatının təmin olunmasını daima diqqət mərkəzində saxlamasının bariz göstəricisi kimi qiymətləndirilməlidir: "

Aztəminatlı və sosial qayğıya ehtiyacı olan insanlar ən müxtəlif formalarda hər zaman dövlət qayğısını hiss edirlər. Bu sosial kateqoriyaya aid olan vətəndaşlarımızın mənzil-məişət problemlərinin həllindən tutmuş onların müalicəsinə qədər, müvafiq daimi müavinətlərdən tutmuş birdəfəlik yardımlara qədər həmişə dövlət tərəfindən dəstək almaqdadırlar. İmzalanan son sərəncama əsasən, ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 manat məbləğində birdəfəlik yardım ödənilməsi nəzərdə tutulur. Yardımın ümumi miqdarı 5 milyon manat təşkil edir ki, bu da az məbləğ hesab edilə bilməz".

Baş redaktor vurğulayıb ki, dövlətin aztəminatlı ailələrə qayğısı təkcə bununla bitmir: "Müxtəlif proqramlar və layihələr çərçivəsində onların məşğulluğunun təmin edilməsi, güzəştli kreditlərin ayrılması ilə xırda sahibkarlara çevrilmələri, əmək bazarında fəal əmək resursu kimi qiymətləndirilmələri üçün böyük işlər həyata keçirilir. Bu proqramlar çərçivəsində təkcə 2018-ci ildə 7 min belə ailə özünüməşğulluq proqramına cəlb edilib. Təkcə son iki il ərzində "Ailə Biznesinə Asan Dəstək" - "ABAD", "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" (DOST) publik hüquqi şəxs kimi yeni qurumlar yaradılıb. Həyata keçirilən geniş layihələr çərçivəsində aztəminatlı ailələrin problemlərinin həllinə dəstək verilir. Bütün bunlar bir daha Azərbaycanda dövlət siyasətinin mərkəzində ölkə vətəndaşının rifahının dayandığını göstərir".

## "Prezident İlham Əliyev hər bir Azərbaycan ailəsinə həssaslıqla yanaşır"



"SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev söyləyib ki, aztəminatlı ailələrin cənab Prezidentin diqqətində olması Onun bütövlükdə Azərbaycan ailəsinə göstərdiyi ardıcıl qayğının tərkib hissəsidir: "Cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə və hazırda da, sosial siyasəti əsas faktor kimi dəyərləndirir və bunu bilavasitə xalqının qayğısına qalması ilə sübuta yetirir. Xüsusilə xatırlatmaq istərdim ki, cənab İlham Əliyev hələ 2003-cü ildə dövlət başçısı seçilərkən vurğulamışdı ki, aparılan siyasətin təməlində vətəndaş amili dayanır. O, ötən 15 ildə bir daha təsdiq etdi ki, vədinə sadiqdir və bu yolu daima davam etdirir".

O bildirib ki, bu gün hər bir azərbaycanlı Ulu Öndər Heydər Əliyevin xalqına göstərdiyi atalıq qayğısını ehtiramla xatırlayır və Onun layiqli davamçısı olan Prezident İlham Əliyev mütərəqqi şəxsiyyət və dövlət başçısı olaraq, hər bir Azərbaycan ailəsinə həssaslıqla yanaşır və öz qayğısını əsirgəmir: "Belə ki, Azərbaycan ailəsinin dünya cəmiyyətindəki yerinin və rolunun möhkəmləndirilməsi onun inkişafından qaynaqlanır. Vətəndaşlığın, mənəviyyatın, ümumiyyətlə, maddi və mənəvi inkişafın tərəqqisi üçün dövlətin qayğısı hər zaman öz vacibliyi ilə seçilməkdədir. Prezident İlham Əliyev bu vacibliyi, bu gerçəkliyi növbəti dəfə mövcud Sərəncamı ilə həyata keçirdi".

B.Quliyev hesab edir ki, əgər ölkənin iqtisadiyyatı sürətli inkişaf yolu keçməsəydi, bu gün bənzər addımların atılması da mümkünsüz olardı. "Məhz güclü iqtisadiyyatın formalaşdırılması, Azərbaycanın dünya birliyindəki yerinin möhkəmləndirilməsi, nəhəng iqtisadi layihələrin reallaşdırılması nəticə etibarilə, Azərbaycan xalqına öz səmərələrini, bəhrələrini verməkdədir. Uğurlu sosial siyasətin reallaşdırılmasına əsas təkan verən güclərdən biri də uğurlu iqtisadi siyasətin həyata keçirilməsi gerçəkliyidir. Daha dəqiq desək, sosi-

# Azərbaycan dövlətinin sosial siyasətinin mərkəzində insan amili dayanır

al siyasətin ardıcıllıqla uğurlar qazanması monolit iqtisadi gücdən bir dinamika, bir stimul alır. Məhz bunun da nəticəsidir ki, xalqımız dövlətinin, Prezident İlham Əliyevin davamlı qayğısı ilə əhatə olunur".

Baş redaktor vurğulayıb ki, dünyada siyasi-iqtisadi böhranların demək olar ki, bütün ölkələri öz ağuşuna aldığı bir vaxtda, Azərbaycanda aztəminatlı ailələrə, eləcə də digər sosial təbəqələrə - qaçqın və məcburi köçkünlərə, şəhid və veteran ailələrinə, hərbçilərə, ziyalılara, mətbuat işçilərinə, təqaüdçülərə, eləcə də digər sahələrdə çalışanlara göstərilən diqqət və qayğı belə deməyə əsas verir ki, biz doğru yoldayıq və bu qayğılardan bəhrələnən xalqımız da bu inkişaf yolu ilə öz Prezidentinin ətrafında daha xoşbəxt gələcəyə doğru addımlamaqdadır.

## "Azərbaycan dövlətinin siyasətində insan faktoru ön yerdə dayanır"




"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib ki, Azərbaycan Prezidenti ölkənin bütün təbəqələrindən olan insanlara öz diqqət və qayğısını göstərir: "Dövlət başçısı İlham Əliyev daha illər öncə bəyan etdiyi kimi, O, hər kəsin Prezidentidir".

O bildirib ki, Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada jurnalistlərə xüsusi diqqət və qayğı var: "Jurnalistlərlə bağlı son dövrlərdə atılan addımları xüsusi qiymətləndirmək lazımdır. Qeyd etmək lazımdır ki, bu gün dünyanın müxtəlif ölkələrində jurnalistlərin siyasi dünya görüşlərinə görə onlar arasında fərq qoyulduğu halda, Azərbaycanda belə bir fərq qoyulmadan, istənilən təbəqəni, dünya görüşünü nümayiş etdirən insanlar tərəfindən xüsusi qayğı ilə əhatə olunurlar".

E.Mirzəbəyli söyləyib ki, ölkəmizdə jurnalistlər mənzillə təmin olunur, digər sosial problemlərinin həlli istiqamətində addımlar atılır, Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun xətti ilə media layihələri maliyyələşdirilir, müxtəlif dövrlərdə müsabiqələr keçirilir, müsabiqələr yolu ilə yenə də jurnalistlərin öz istedadlarının müqabilində qalib gələrək, müəyyən vəsaitlər əldə edirlər.

Onun sözlərinə görə, bu istiqamətdə çox konseptual fəaliyyət həyata keçirilir ki, bunu görməmək mümkün deyil: "Bu isə sübuta yetirir ki, Azərbaycan dövləti sosial mahiyyətli dövlətdir. O, ilk növbədə, öz vətəndaşlarının mənafeyini hər şeydən üstün tutur. Azərbaycan dövlətinin siyasətində insan faktoru ön yerdə dayanır. Biz cənab Prezidentin siyasətində bu faktorun hər zaman irəlidə getdiyinin şahidi oluruq".

## "Cəmiyyətin bütün təbəqələri dövlətin sosial qayğısı ilə təmin olunma imkanına malikdir"

"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı hesab edir ki, ümumiyyətlə, cəmiyyətin inkişafında Azərbaycan dövləti və onun həyata keçirdiyi siyasətin müstəsna əhəmiyyəti var: "Cəmiyyətin bütün təbəqələrinin dövlətin yaratdığı münbit şəraitdən, iqtisadi imkanlardan, sosial qayğılardan tam təmin olunma imkanları var. Biz bunu ölkəmizdə həyata keçirilən sosial siyasətdə görürük".

Prezident İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" Sərəncamının dövlətin məqsədyönlü və səmərəli sosial siyasətin daha bir təzahürü olduğunu deyən baş redaktor söyləyib ki, bütün bunlar bir daha göstərir ki, əhalinin sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir: "Əhalinin aztəminatlı hissəsi dövlətin sosial siyasətində həmişə diqqət mərkəzində olub. Hələ 2003-cü il fevralında yoxsulluğun azaldılması haqqında ilk dövlət proqramı təsdiqlənib, 2008-ci ildə növbəti belə proqram qəbul edilib".




Onun sözlərinə görə, ölkəmizdə təkcə aztəminatlı ailələr deyil, eləcə də cəmiyyətin digər təbəqələri də qayğı ilə əhatə olunub: "Cəmiyyətin ən ayrılmaz tərkib hissəsi, eyni zamanda intellektual kəsimi olan mətbuata da dövlətin qayğısı hiss olunmaqdadır. Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan mətbuatına jurnalistikasına daim qayğı göstərilib. Zaman-zaman Azərbaycan nəşriyyatına olan borclar silinib, ölkəyə kağız gətirilməsində çətinliklər yaranan zaman məhz Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində bu problemlər aradan qaldırılıb"

Bu siyasətin hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirildiyini deyən A.Aşırlı deyib ki, son 15 ildə cəmiyyətdə ən çox diqqət göstərilən təbəqələrdən birinin jurnalistlər olduğunu söyləmək olar: "Jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması, mənzil tələbatının ödənilməsi istiqamətində çox ciddi addımlar atılıb. 400-ə yaxın jurnalist evlə təmin olunub. Eyni zamanda ayrı-ayrı jurnalistlər bu sahənin inkişafında xidmətlərə görə, müxtəlif orden, medal, dövlət səviyyəsində təltiflərlə mükafatlandırılıblar".

## "Əhalinin sosial vəziyyəti dövlətin prioritet istiqamətidir"

"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev qeyd edib ki, Azərbaycan müstəqilliyini elan etdikdən sonra dövlətin əsas prioritet istiqamətlərindən biri əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması olub: "Bu istiqamətdə müxtəlif xətlər üzrə iş aparılıb, şəhid ailələri, əhalinin aztəminatlı təbəqələri ilə bağlı konkret qanunlar qəbul olunur, sosial proqramlar həyata keçirilir. Prezident İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" Sərəncamına toxunan baş redaktor qeyd edib ki, 15 ildə ardıcıl olaraq həyata keçirilən, tədbirlər,




icra edilən proqramlar sayəsində əhalinin aztəminatlı təbəqəsinin ümumu əhali nisbətində xüsusi çəkisi azalıb, yoxsulluq 49 faizdən 5 faizə düşüb. Dövlət başçısının ötən gün imzaladığı sərəncam da ölkəmizdə yürüdülən məqsədyönlü sosial siyasətin tərkib hissəsidir və aztəminatlı ailələrin rifah halının yüksəldilməsinə xidmət edir".

Azərbaycanda həyata keçirilən sosial proqramlardan jurnalistlərin də yararlandığını deyən İ.Quliyev söyləyib ki, 2007-ci ildə KİV-in İnkişafına Dövlət Konsepsiyası qəbul olunduqdan sonra, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb ki, bu fondun vasitəsilə media dövlətin imkanlarından öz sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün istifadə etməyə başlayıblar: "Bunun ən qabarıq nümunəsi jurnalistlərə mənzillərin verilməsidir. Jurnalistlər üçün iki bina istifadəyə verilib. Artıq 3-cü bina tikilir ki, yeni binanın 2020-ci ildə jurnalistlərin ixtiyarına verilməsi nəzərdə tutulur".

Baş redaktor söyləyib ki, mənzil təminatı çox dəyərli məsələdir: "Çünki, adi maaşla mənzil əldə etmək mümkün deyil. Bu baxımdan dövlət tərəfindən cəmiyyətin müxtəlif təbəqələrinin mənzillə təmin olunması böyük dəyərdir. Dövlətin bu jesti əhali tərəfindən çox yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan siyasətinin əsası sosial yönümlülük təşkil edir. Əminik ki, bu siyasət növbəti illərdə də davamlı olacaq".

*Nailə Məhərrəmova*

## "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsinə dair Sərəncam məqsədyönlü sosial siyasətin tərkib hissəsidir"



Azərbaycan Prezidenti İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" Sərəncamı yürüdülən məqsədyönlü sosial siyasətin tərkib hissəsidir. Bu Sərəncam bir daha təsdiq etdi ki, Azərbaycanda əhalinin sosial rifahının daha da yüksəldilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat qeyd edib ki, ölkəmizdə əmək pensiyaları və sosial müavinətlər getdikcə artırılır, əlillərin, şəhid ailələrinin maddi rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən həyata keçirilən sosial müdafiə tədbirləri, həmçinin sığorta-pensiya sisteminin davamlı inkişafı sosial təminat sisteminin mühüm komponenti olan təqaüdlərin cari ildə də mütəmadi artımına imkan verib. Dövlət başçısı əhaliyə, xüsusilə sosial cəhətdən həssas qruplara sosial xidmətlərin göstərilməsi zamanı vətəndaş məmnunluğunu daim diqqət mərkəzində saxlayır. "Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında" Sərəncam dövlətin məqsədyönlü və səmərəli sosial siyasətinin daha bir təzahürüdür.

Ölkəmizdə əhalinin aztəminatlı hissəsinin dövlətin həmişə diqqət mərkəzində olduğunu deyən Milli Məclisin deputatı vurğulayıb ki, hələ 2003-cü ildə yoxsulluğun azaldılması haqqında ilk dövlət proqramı təsdiqlənib, 2008-ci ildə növbəti belə proqram qəbul edilib. Bundan başqa, sahibkarlığın, xüsusən də kiçik və orta sahibkarlığın dəstəklənməsi, məşğulluğun artırılması, regionların inkişafı ilə bağlı qəbul edilərək həyata keçirilən tədbirlərin də əsas məqsədi əhalinin yoxsul və işsiz təbəqəsinin sosial müdafiəsini gücləndirmək olub.

## Vladimir Putin: Atatürk Rusiyanın böyük dostu idi

Atatürk, heç şübhəsiz ki, Türkiyə tarixinin görkəmli siyasi xadimidir. O, Türkiyə tarixinə dövlətçiliyin qorunması və bərpası üzrə parlaq səhifə yazıb. Bu istiqamətdə çox işlər görüb. AZƏRTAC xəbər verir ki, bu sözləri Moskvada keçirdiyi mətbuat konfransında Rusiya-Türkiyə münasibətləri haqqında sualı cavablandıran Rusiya Prezidenti Vladimir Putin deyib.



# Ötən dövr ərzində Azərbaycan mühüm nailiyyətlər əldə edib

*Milli Məclisin deputatı Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi*

***- Pərvin xanım, Azərbaycan son 15 ildə bütün sahələrdə möhtəşəm uğurlar qazanıb, respublikamızın beynəlxalq nüfuzu daha da artıb. Ölkəmizdə ötən müddət ərzində həyata keçirilən uğurlu siyasət sayəsində əldə edilən nəticələr və nailiyyətlər barədə nə deyə bilərsiniz?***

- Son 15 ildə müstəqil Azərbaycanın həyatı bütün istiqamətlərdə müsbət reallıqların artması ilə səciyyələnib. Ardıcıllıqla həyata keçirilən məqsədyönlü siyasət respublikamızı güclü dayaqlara malik olan və milli maraqları qətiyyətlə qoruyan dövlətə çevirib. Hazırda Azərbaycan Cənubi Qafqaz coğrafiyasının bütün parametrlər baxımından lider dövləti statusunu inamla daşıyır. Eyni zamanda, respublikamızın ölkənin güclü potensialına əsaslanan və qlobal miqyasda meydana çıxan yeni çağırışlarla uzlaşan nümunəvi inkişaf modeli bütün dünyada yüksək qiymətləndirilir.

Sözsüz ki, müasir geosiyasi vəziyyətdə, siyasi çağırışların və xarici risklərin mövcud olduğu dövrdə müəyyən edilmiş siyasi hədəflərə çatmaq o qədər də asan olmayıb. Şübhəsiz, son illərdə əldə edilən bütün bu nailiyyətlərin əsasında Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu praqmatik daxili və xarici siyasət kursu dayanır. Bu bir həqiqətdir ki, Ulu öndərin daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezidentimiz cənab İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olub.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycan olduqca mühüm nailiyyətlər əldə edib. İstər daxili, istərsə də xarici arenada strateji uğurlar qazanılıb. Vurğulamaq lazımdır ki, Prezident İlham Əliyev dövlət başçısı kimi Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu müasir dövrün çağırışlarına uyğun daha da inkişaf etdirərək uğurla həyata keçirir. Bu illər ərzində ölkəmiz həm iqtisadi, həm siyasi, həm də beynəlxalq sahələrdə böyük nailiyyətlər qazanıb. Möhtərəm Prezidentimizin diplomatiyada və dövlət idarəçiliyindəki zəngin təcrübəsinin, eləcə də şəxsi nüfuzu və xarizmasının nəticəsidir ki, ölkəmizə beynəlxalq ictimaiyyət tərəfindən çox böyük hörmət var. Azərbaycanda aparılan davamlı və uzunmüddətli iqtisadi islahatlar nəticəsində ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri ilə bir sırada dayanır. Bunun nəticəsidir ki, Azərbaycan müstəqilliyinin 20-ci ilində- 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçildi. Tarixdə hələ belə bir fakta rast gəlinməyib. Həqiqətən də, gənc ölkə üçün müstəsna əhəmiyyətli uğur idi.

Azərbaycan həm də kosmos ölkələri sırasındadır ki, bu uğura da hər bir dövlət nail ola bilməyib.

Əlbəttə ki, cənab Prezidentin həyata keçirdiyi siyasətin uğurlarını xalqımız daim görür və yüksək qiymətləndirir. Bu gün sarsılmaz xalq-iqtidar birliyi Azərbaycanın daxili mənzərəsini səciyyələndirən çox əlamətdar bir amildir. Ölkəmizin təcrübəsi identik və heyrətamizdir. Son 15 ildə keçilən yola nəzər saldıqda biz Prezident İlham Əliyevin daim xalqın arzu və istəkləri ilə üst-üstə düşən və reallıqla səsləşən təşəbbüslərlə çıxış etdiyinin, milli maraqlara əsaslanan siyasət



apardığının şahidi oluruq.

2018-ci il aprelin 11-də keçirilən son prezident seçkilərinin nəticələri isə Azərbaycanda dövlət başçısı İlham əliyevin nüfuzunun kifayət qədər yüksək olduğunu bir daha təsdiqlədi. Seçkilərində xalq öz iradəsini növbəti dəfə ortaya qoyaraq, son 15 ildə Azərbaycanı inamla idarə edən, ölkəmizin ünvanına çoxsaylı uğurlar qazandıran İlham Əliyevə səs verdi və Onu növbəti 7 il üçün Azərbaycanın dövlət başçısı seçdi. Bu seçim xalqın öz liderinə sonsuz inamının ifadəsidir.

Yeri gəlmişkən, qeyd edim ki, sona çatmaqda olan 2018-ci il də Azərbaycan üçün uğurludur. Əldə edilən naliyyətlər ölkəmizin beynəlxalq imicinin artması ilə yadda qalıb. Bu il ərzində Azərbaycan dünya miqyasında dinamik inkişaf tempinə malik olan ölkələr sırasında aparıcı mövqeyini qoruyub saxlayıb. Ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

***- Azərbaycan həmçinin nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Bu baxımdan, ölkəmizin humanitar əməkdaşlıq mərkəzinə çevrilməsinin əhəmiyyəti nədən ibarətdir?***

- Məlumdur ki, Azərbaycan Cənubi Qafqaz regionunun lider dövlətidir. Yüksək beynəlxalq nüfuza malik olan Azərbaycanın daxili və xarici siyasət kursunu, dünya siyasi arenasında yeri və rolunu xarakterizə edərkən ölkəmizin beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış etməsini də qeyd etmək lazımdır. Ümumiyyətlə, regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən respublikamız sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir çox nüfuzlu beynəlxalq tədbirlərin respublikamızda keçirilməsi Azərbaycanın beynəlxalq inteqrasiya prosesində uğurla iştirak etməsindən xəbər verir. Beləliklə, Azərbaycan özünün çoxşaxəli və mütərəqqi xarici siyasət kursu ilə müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır.

Başqa sözlə, respublikamiz beynəlxalq dialoq və əməkdaşlıq mərkəzi kimi çıxış edir. Azərbaycan öz təklif və təşəbbüsləri ilə dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, ümumbəşəri dəyərlərin, multikulturalizmin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir. Azərbaycan qlobal və regional səviyyəli tədbirlərə ev sahibliyi edən, bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır. Təsadüfi deyil ki, Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Bu fakt Azərbaycanın beynəlxalq humanitar əməkdaşlığa önəm verməsinin bariz nümunəsidir. Azərbaycan dövlətinin apardığı və xalq tərəfindən birmənalı dəstəklənən düzgün və ardıcıl siyasət nəticəsində Azərbaycan dünya birliyi tərəfindən etibarlı tərəfdaş və dost ölkə kimi qəbul edilir.

***- Azərbaycan bu gün dünyada tolerantlıq və multikulturalizm ənənələrinə görə də başqa ölkələr üçün nümunədir...***

- Ümumiyyətlə, Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına mühüm töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir. Buna paralel olaraq, ölkəmizin timsalında, sözün əsl mənasında, multikulturalizmin təntənəsi və nümunəsi müşahidə edilməkdədir. Azərbaycan təcrübəsi onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur və bu, mədəniyyətlər, sivilizasiyalararası dialoqun, xalqlararası əlaqələrin inkişafına özünəməxsus töhfələr verir. Bütövlükdə, sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilib. Xalqımızın çoxəsrlik tolerant və mehriban birgəyaşayış ənənələri dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsində və inkişafında nümunə kimi göstərilir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanda multikulturalizm dövlət siyasətidir: “Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq”.

Ölkəmizdə multikulturalizmin həm dövlət siyasəti, həm də cəmiyyətdə həyat tərzi olması beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan elə bir ölkədir ki, burada milli-dini-irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycanda xalqların, milli və dini icmaların heç bir fərq qoyulmadan bərabər yaşamasına, sıx inteqrasiya etməsinə həm dövlət güclü siyasi iradə nümayiş etdirir, həm də cəmiyyətdə buna böyük istək var. Təsadüfi deyil ki, bu gün ölkəmizdə mövcud olan milli həmrəylik, sabitlik və tolerantlıq mühiti məhz bu dəyərlərə əsaslanır.

Tolerantlıq mərkəzi və multikulturalizm diyarı kimi tanınan Azərbaycan həm də İslam həmrəyliyinə əvəzsiz töhfələr verir. Şərq və Qərb sivilizasiyalarının harmonik şəkildə qovuşduğu Azərbaycanda müxtəlif dövrlərə və mədəniyyətlərə, o cümlədən İslam mədəniyyətinə məxsus tarixi abidələr, maddi-mədəniyyət nümunələri, mənəvi irs dövlət səviyyəsində qorunur, himayə olunur. Eyni zamanda, Azərbaycan müsəlman ölkələri arasında - İslam aləmində nüfuzlu dövlət kimi tanınır. Məhz bunun qanunauyğun nəticəsidir ki, respublikamız müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malikdir və münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir. Mədəniyyət, humanitar sahələrdə də Azərbaycan İslam ölkələri arasında əlaqələrin genişlənməsində mühüm rol oynayır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, İSESCO kimi aparıcı təşkilatların fəal üzvüdür, onların nüfuzunun yüksəldilməsinə, İslam mədəniyyətinin inkişaf etdirilməsi və dünyada yayılması işinə öz dəyərli töhfələrini verir.

***- Pərvin xanım, ölkəmizdə humanitar siyasətin tərkib hissəsi olaraq təhsil sahəsində görülən işləri necə dəyərləndirisiniz?***

- Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Azərbaycanın təhsil sahəsindəki göstəriciləri dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir. Müasir qloballaşma əsrində Azərbaycanda milli tərəqqinin yeganə yolu elm və təhsilin, yeni biliklərin, intellektual əməyin inkişafından, habelə kompyuter və informasiya texnologiyalarının bütün idarəetmə səviyyələrində geniş tətbiqindən keçib. Bu reallıq nəzərə alınaraq dövlətin uğurlu elm və təhsil siyasəti, bu sahədə özünü göstərən bir sıra problemlərin həlli mühüm əhəmiyyət kəsb edir.

Təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun müstəsna xidmətlərini xüsusi ilə qeyd etmək lazımdır. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək”, “Uşaq evləri və internat məktəblərinin inkişafı” proqramları və digər layihələri ölkənin təhsil sahəsinin inkişafında mühüm rol oynayıb.

Bu gün Azərbaycanda milli maarifçilik ənənələri saxlanılmaqla, dünya təhsil sisteminə inteqrasiya prosesi gedir. Ölkəmizdə təhsilin müasirləşdirilməsi və problemlərinin mərhələli həlli, müəllim kadrların hazırlığı, inkişaf etmiş dövlətlərin bu sahədəki təcrübəsinin mənimsənilməsi, ümumtəhsil məktəblərində kompüter və informasiya texnologiyalarının geniş tətbiqi məsələləri də dövlət başçısının xüsusi diqqət mərkəzindədir. Dövlət büdcəsində təhsilə ayrılan xərclərin ildən-ilə artırılması bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsinə imkan vermişdir.

Bu gün davamlı olaraq təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Bundan sonra da Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir.

# Rusiya Ermənistana ağır siyasi zərbə hazırlayır

*Paşinyan hakimiyyəti çıxılmaz vəziyyətdə*

***Ermənistanda baş vermiş siyasi dəyişiklik, ilk növbədə, bu ölkənin Rusiya ilə münasibətlərinə ciddi zərbə vurdu. Belə ki, Nikol Paşinyanın küçə siyasəti, yəni "məxməri inqilab" adı altında reallaşdırdığı qiyam zamanı onun anti-Rusiya xarakterli çıxışlar etməsi artıq öz nəticələrini göstərməyə başlayıb. Çünki köhnə sistemin Rusiyameyilli siyasətindən fərqli olaraq, mövcud iqtidar istər dolayı, istərsə də birbaşa yollarla uzun illər bu ölkəni ayaqda saxlamış Rusiyanın əleyhinə çıxışlar edir. Əbəs deyil ki, KTMT və Avrasiya İttifaqı kimi qurumlarda belə, ermənilərin ciddi tərəfdaş kimi qəbul edilməməsi son günlər ən çox müzakirə edilən mövzuya çevrilib.***




Başqa tərəfdən, o da sirr deyil ki, Ermənistanın mövcud hakimiyyətinin əsas siyasi dəstəyi Qərbdən, əsasən də, ABŞ-dan gəlir. Söz yox ki, bu fakt Rusiyanı qəzəbləndirməyə bilməz. Daha bir maraqlı məqam, ABŞ-ın Bolqarıstan vasitəsi ilə Ermənistanı silahla təchiz etməsi xəbəridir. Çünki son bir neçə gündə, Türkiyə üzərindən keçməmək şərti ilə, əsasən, Stavropol vilayəti üzərindən uçan Bolqarıstana aid yük təyyarələri Yerevanın "Zvatrnots" hava limanına enib və bu barədə sosial şəbəkələrdəki hərbi xarakterli qruplar yazıblar. Belə olan vəziyyətdə, son günlər Rusiya XİN və aparıcı siyasi dairələri Ermənistanın apardığı siyasətə qarşı sərt mövqedən çıxış etməkdədirlər. Məsələn, Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin yeni Ermənistan rəhbərliyinin ABŞ-dan gələn şantaj və təzyiqlərə qarşı çıxmaq üçün özündə cəsarət tapacağına və müstəqil qərar qəbul edəcəyinə ümid etdiyini bildirmişdi. Karasin bu il Ermənistanda baş verən radikal dəyişikliklərin fonunda Vaşinqtonun ölkənin daxili və xarici işlərində müdaxiləsinin açıq müstəviyə çıxdığını da deyib.

Eyni zamanda, Rusiyanın XİN rəhbəri Sergey Lavrov, ABŞ-ın Ermənistanda hərbi məqsədli laboratoriyalarının mövcudluğu ilə bağlı, üstüörtülü də olsa, fikir bildirmişdi. Məhz bundan sonra, Ermənistanda xarici hərbi obyektlərin və hərbçilərin fəaliyyətlərinin dayandırılmasına dair sənəd məsələsi ortaya çıxarıldı. Bu kimi faktorlar isə, artıq Rusiyanın Ermənistana qarşı ağır siyasi zərbə vurması ehtimallarını axtarır.

Maraqlısı da budur ki, belə bir ziddiyyətli ab-havada erməni tərəf guya ki, "müstəqil siyasət" yürütdüyünü nümayiş etdirməyə cəhd edir. Yəni aşkar şəkildə Rusiyaya qarşı rəsmi şəxslərin fikirləri, bəyanatları irəli sürülür. Məsələn, Ermənistan XİN-in mətbuat katibi Anna Nağdalyan Rusiya XİN-in müavini Qriqori Karasinin səsləndirdiyi fikirlərə cavab verib: "Ermənistan müstəqil dövlətdir, istənilən ölkə ilə əlaqə qura bilər". Nağdalyan, əslində, sözügedən bəyanatı ilə münasibətlərin daha da gərginləşməsinə şərait yaradıb.

Yeri gəlmişkən, bu ilin oktyabrında Yerevana səfər edən ABŞ Prezidentinin təhlükəsizlik üzrə müşaviri Con Bolton Ermənistan rəhbərliyini ənənəvi münasibətlərdən xilas olmağa çağırmışdı. Ermənistanda anti-Rusiya siyasətinin prioritetə çevrilməsi də, məhz həmin çağırışdan sonra vüsət alıb.

Söz yox ki, Ermənistanın hakimiyyət dairələrinin rəsmi şəxslərinin bənzər bəyanatlarının səslənməsinə əsas "dobronu", məhz baş nazir vəzifəsini icra edən Nikol Paşinyan verir. Belə ki, o da, öz növbəsində, jurnalistlərlə söhbətində Karasinin bəyanatına qarşılıq olaraq, guya Ermənistanın müstəqil siyasət apardığını deyib. Lakin ən maraqlısı, onun Sergey Lavrovun məlum bəyanatına olan cavabıdır. Paşinyan Lavrovun Rusiyanın Ermənistan ərazisində xarici hərbçilərin və obyektlərin fəaliyyətlərinin dayandırılması ilə bağlı iki ölkə arasında sənədlərin hazırlanması bəyanatını yalanlayıb. Yəni belə çıxır ki, Nikol Paşinyan Sergey Lavrovun yalan danşdığını iddia edib. "1in.am-a" saytı xəbər verir ki, Paşinyan bu dəfə mövcud sənədin Ermənistanın köhnə hakimiyyəti ilə razılaşdırıldığını bildirib. "Mövcud razılaşma Ermənistan hakimiyyəti ilə keçmişdə müzakirə edilib, ancaq rusiyalı həmkarlarla bizim hakimiyyətimiz arasında müvafiq razılaşma olmayıb" deyə Paşinyan bildirib.

Artıq Nikol Paşinyanın bu kimi davranışları erməni mətbuatında və ictimai rəyində də narahatlıq doğurmağa başlayıb. Adıçəkilən erməni saytının şərh bölməsində qeyd olunur ki, Nikol Paşinyanın cavabı Ermənistanı təhlükəli riskə doğru sürükləyə bilər. Hətta bu məsələnin Dağlıq Qarabağ münaqişəsi və ətrafına da təsir edəcəyi iddia olunur. Daha dəqiq desək, Paşinyanın "cəsarətli" anti-Rusiya xarakterli bəyanat və çıxışları sonda Rusiyanın bu hakimiyyətə ağır siyasi zərbə vuracağı ilə nəticəsini tapacaq.

***Rövşən NURƏDDİNOĞLU***

## Məktəbəqədər təhsil və uşaq evləri idarəsinin rəhbərliyinə ciddi xəbərdarlıq edildi



Ötən gün Bakı şəhərindəki Məktəbəqədər təhsil müəssisələrinin ərzaq təminatını həyata keçirən bəzi qurumlar tərəfindən paytaxtın bir sıra uşaq bağçalarına standartlara uyğun olmayan ərzaq verilib. Bakı Şəhər İcra Hakimiyyətindən SİA-ya verilən məlumata görə, məsələ ilə bağlı yerlərdən Bakı Şəhər İcra hakimiyyətinə daxil olan məlumatlara əsasən dərhal Bakı Şəhər İcra hakimiyyəti və Məktəbəqədər təhsil və uşaq evləri idarəsinin əməkdaşları müxtəlif uşaq bağçalarında olub. Həmin ərzaqların qida hazırlanmasına verilməsinin qarşısı alınıb, onların tam şəkildə geri qaytarılaraq yerinə keyfiyyətə uyğun ərzaqlarla əvəz olunması təmin edilib.

Məsələnin ciddiliyi nəzərə alınaraq Şəhər İcra Hakimiyyətində operativ müşavirə keçirilib. Məktəbəqədər təhsil müəssisələrinin ərzaqla təminatının vəziyyətinin yerində araşdırılması üçün Komissiya yaradılıb, bu işlərdə prinsipiallıq göstərməyən bir neçə bağça müdirəsinə töhmət verilib, Bakı Şəhər Məktəbəqədər təhsil və uşaq evləri idarəsinin rəhbərliyi ciddi xəbərdarlıq edilib. Müşavirədə xüsusi olaraq qeyd olunub ki, uşaqlar hər zaman ən keyfiyyətli ərzaqlarla təmin olunmalı və bu məsələlərə çox ciddi nəzarət edilməlidir. Bununla əlaqədar Yeni il ərəfəsində bağçalara verilən ərzaqların keyfiyyəti və çeşidlərinin artırılması üçün əlavə tədbirlər görülür.

Eyni zamanda Bakı şəhərindəki Məktəbəqədər təhsil müəssisələrinin ərzaq təminatını həyata keçirən qurumların rəhbərləri Şəhər İcra Hakimiyyətinə dəvət olunaraq məsələ ilə bağlı xəbərdarlıq ediliblər. Hazırda Komissiya tərəfindən bağçalardakı ərzaqların keyfiyyətinin yoxlanılması ilə bağlı reydlər keçirir.

## AZAL Bakıdan Həştərxana birbaşa reysləri bərpa edəcək

"Azərbaycan Hava Yolları" (AZAL) Aviaşirkəti dördillik fasilədən sonra 2019-cu ilin baharında Bakıdan Həştərxana birbaşa reyslərin bərpa olunmasını planlaşdırır. AZƏRTAC TASS agentliyinə istinadla bildirir ki, bu barədə jurnalistlərə Həştərxan vilayətinin beynəlxalq və xarici iqtisadi əlaqələr nazirinin səlahiyyətlərini icra edən Denis Afanasyev məlumat verib. İlkin plana görə, uçuşlar həftədə iki dəfə həyata keçiriləcək. D.Afanasyev dekabrın 18-də və 19-da Həştərxan nümayəndə heyətinin Azərbaycana səfərinin yekunlarını şərh edərək deyib: "AZAL şirkəti ilə söhbətimiz uğurlu oldu, aviareyslərin 2019-cu ilin baharında bərpa olunması planlaşdırılır. Hazırda texniki məsələlər və marketinq siyasəti müzakirə edilir. İlkin plana görə, reyslər həftədə iki dəfə həyata keçiriləcək, uçuş müddəti isə hava gəmisinin tipindən asılı olaraq 1 saat 15 dəqiqədən 1 saat 30 dəqiqəyə qədər olacaq".

Nazir qeyd edib ki, Həştərxan ilə Bakı arasında aviareyslərin bərpa olunması məsələsi regionun qubernatoru səlahiyyətlərini icra edən Sergey Morozovun Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə müzakirə edilib. Azərbaycan Prezidenti bu təşəbbüsü dəstəkləyib və məsələnin ən qısa müddətdə həll edilməsi barədə tapşırıq verib.

# Xarici siyasət konsepsiyası olmayan Ermənistan XİN-in ziddiyyətli bəyanatları davam edir

***Ermənistanın xarici siyasət idarəsindən son günlərdə yayılan xaotik bəyanatlar göstərir ki, bu ölkənin xarici siyasət konsepsiyası yoxdur. Rəsmi Yerevanın Rusiya və Qərblə münasibətlərini yeni müstəviyə daşımaq üzrə uğursuz cəhdləri bir çox hallarda diplomatik qalmaqalla nəticələnir.***



AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, belə qalmaqallardan biri Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son bəyanatı ilə əlaqədardır. Belə ki, rusiyalı nazirin "Komsomolskaya Pravda" radiosuna müsahibəsindəki "Amerikan biolaboratoriyalarında əcnəbi hərbçilərin olmaması barədə sənəd üzərində Ermənistanla apardığımız iş başa çatır" cümləsində dəyişiklik edən erməni müxalifəti bunu "Ermənistandakı amerikan biolaboratoriyalarında əcnəbi hərbçilərin olmaması barədə sənəd üzərində apardığımız iş başa çatır" kimi təqdim edərək Paşinyana qarşı fəal kampaniyaya başlayıb. Bunun nəticəsində həm Rusiya, həm də ABŞ Yerevanın anlaşılmaz mövqeyindən narazı qalıb. "Sasna tsrer" partiyası isə yeni hökuməti ölkənin olmayan müstəqilliyini satmaqda, Ermənistanı Rusiyanın müstəmləkəsinə çevirməkdə ittiham edib. Vəziyyətin gərginləşdiyini görən Ermənistan XİN ölkənin ərazisində heç bir xarici dövlətin hərbi hissələrinin yerləşdirilməyəcəyi barədə bəyanatla çıxış etməyə məcbur olub. (Əlbəttə, 102 nömrəli rus hərbi bazası istisna olmaqla-AZƏRTAC).

Ermənistan XİN-in mətbuat katibi Anna Naqdalyan qərbyönlü siyasi analitiklərin də ölkənin Rusiyanın müstəmləkəsi altında olması barədə ittihamlarına cavab verməli olub. Paradoksal olan bu cavabda deyilir: "Ermənistan-Rusiya münasibətləri suveren bərabərhüquqluluq prinsipləri üzərində qurulub və bu əsaslarda da davam edəcək". Ekspertlər isə Ermənistan rəsmisinin bu bəyanatını gülünc hesab edirlər: məlum olduğu kimi, suveren dövlətlərin sərhədlərini əcnəbi əsgərlər qorumur.

Həmin Naqdalyan dekabrın 20-də bəyan edib ki, Belarusun Azərbaycana satdığı silahlar kimlər üçünsə biznes ola bilər, amma erməni xalqı üçün öldürücü vasitədir. Onun sözlərinə görə, bu, regionda sabitliyə təhlükə törədir. Daha bir paradoks: uzun illər boyu Rusiyadan milyardlarla dollar dəyərində silah alan və qonşu ölkənin ərazilərinin 20 faizini işğal etmiş Yerevanın bu bəyanatı verməyə mənəvi və hüquqi haqqı varmı?

Ermənistan xarici siyasətindəki "Qordiyev düyünü" Yerevanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) təklənməsi ilə daha mürəkkəb hala gəlib. Təşkilata üzv dövlətlərin hamısının yekdilliklə Belarusun namizədini KTMT sədrliyinə təyin olunmasını dəstəkləməsi Paşinyanın təcrid olunması ilə nəticələnib. Ermənistan XİN-in mətbuat katibinin bugünkü bəyanatında isə bu məsələnin hələ tam həllini tapmadığı və rəsmi Yerevanın Minskin namizədinə münasibətdə bitərəf mövqe tutduğu qeyd olunur.

# İşğal faktının erməni mətbuatında müzakirəsi işğalın etirafıdır

***Erməni mətbuatı hadisələrə don geyindirməkdə davam edir və təhrif olunmuş, əslində isə, dezinformasiyadan ibarət məlumatlarla kütləni həm çaşdırmağa çalışır, həm də sakitləşdirməyə. Nəzərə alsaq ki, qlobal miqyasda Azərbaycanın uğurları, diplomatik qələbələri artmaqdadır və biri-birini əvəz edir, onların bu təhrifetmə strategiyasını başa düşmək çətin deyil və əslində, bu variantdan başqa özlərinə çarə tapa bilmədikləri göz qabağındadır.***

Ermənistana məxsus "aysor.am" saytı "Ermənistanın səsi" qəzetinə istinadən erməni xislətinə müvafiq şəkildə növbəti təhriflərdən istifadə edir və Strasburqda Avropa Parlamentinin xarici və təhlükəsizlik siyasəti ilə bağlı qəbul edilən qərarın Avropa İttifaqının əsas xarici siyasət prinsiplərini və qaydalarını müəyyənləşdirməklə bağlı olduğunu iddia edir. Hətta bura Sovet İttifaqı ərazisində dondurulmuş münaqişələrə yanaşmanın daxil olduğunu da qeyd edirsə də, bunun Azərbaycanla heç bir əlaqəsinin olmadığını qeyd etməkdən də çəkinmir. Əsasən, Rusiyanın hədəf olduğunu iddia edən erməni mətbuatı Azərbaycanın diqqət mərkəzində olmadığını sübut etməyə cəhd edir.

## Təhrif olunmuş təbliğat və təşviqat işğalçılıq siyasəti yürüdən çarəsizlərin son variantıdır

Avropa Parlamentinin ancaq Krımın qanunsuz birləşməsini və Şərqi Ukraynanın hərbi işğalını qınadığını, Gürcüstanın işğal olunmuş əraziləri - Abxaziya və Sxinvali bölgəsini nəzərdə tutduğunu iddia edən erməni mətbuatı, Dağlıq Qarabağ münaqişəsinin bir daha qeyd olunmaması barədə fikir formalaşdırmağa çalışır. Belə bir fikir formalaşdırmağa çalışmaqla nəyə nail olmaq istədikləri də müəmmalı deyil və bu erməni strategiyasının, erməni xislətinin əvvəldən də əsasını təşkil edir. İndi heç kim üçün sirr deyil ki, ermənilərin təbliğat silahından başqa heç nəyi qalmayıb və yalnız bu şəkildə təhrif olunmuş təbliğat və təşviqat işğalçılıq siyasəti yürüdən çarəsizlərin son variantıdır.

Xalqların öz müqəddəratını təyin etmək hüququnun istifadəsi məsələsinin yenə ermənilər tərəfindən ortaya atılması və bundan istifadə etməyə çalışmaları da çarəsizliklərini təsdiq edir. Məsələ burasındadır ki, bunu da istifadə etmək üçün ortaya atanlar dərk etmədilərdir ki, şüvən qoparmaqla işğal faktını danmaq mümkün deyil. Eyni zamanda, xalqların öz müqəddəratını təyin etmək hüququ kimi istifadə etmək istədikləri bir vasitəyə əl atmaqla Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu təkzib etmək olmaz. Bir halda, ki, həmin torpaqlar Azərbaycana məxsusdur, bu zaman heç bir bəhanəyə, heç bir oyuna yer qalmır və ermənilər öz iddialarında haqsızdırlar. Bu haqsızlığa isə heç bir beynəlxalq təşkilat, heç bir qurum haqq qazandırmaq iqtidarında deyil və ola da bilməz.



## Erməni lobbisi terror və separatçılıq əməllərinə qədər dünyada məşhurdur və hansısa xalqı lobbiçilikdə ittiham etməyə ən çox onların haqqı yoxdur

Erməni mətbuatı Azərbaycan üçün lobbiçiliyin xarakterik olduğunu da yazmaqdan çəkinmir. Ermənistana məxsus mətbuat səhifələri utanmadan iddia edirlər ki, guya Azərbaycan lobbisi nə qədər çalışdısa da Avropa Parlamentinin balanslaşdırılmış mövqeyinə mənfi təsir edə və poza bilmədi. Halbuki erməni lobbisi bütün dünyada terror aktlarından tutmuş bütün separatçılıq əməllərinə qədər məşhurdur və bu baxımdan tək Azərbaycan deyil, hansısa xalqı lobbiçilikdə ittiham etməyə üzləri belə olmamalıdır. Daha dəqiq desək, hansısa xalqı lobbiçilikdə ittiham etməyə ən çox onların haqqı yoxdur.

Avropa İttifaqının spikeri Hay Dat Arut Şirinyanın sözlərinə istinad etməyə çalışan erməni KİV-ləri, Azərbaycanın ərazi bütövlüyü baxımından Şərq Tərəfdaşlığı ölkələrindəki bütün münaqişələrə dair Aİ-yə təsiretmə cəhdlərinin, eləcə də, Azərbaycan lobbisinin təklif etdiyi dəyişikliklərin və əlavələrin uğursuz olduğunu iddia etməkdən nə çəkinmir, nə də utanmır. İşğalçı dövlətə məxsus mətbuat səhifəsində, daha doğrusu, "aysor.am" saytında yazılır ki, Azərbaycan qondarma Artsaxın, yəni Dağlıq Qarabağın itkisi ilə barışıb. Maraqlıdır, əgər Dağlıq Qarabağın işğalçıların işğalı və nəzarəti altında olmasını Azərbaycan üçün itki adlandıranlar dərk etmirlərmi ki, bu ifadə ilə özləri də həmin ərazilərin Azərbaycana məxsus olduğunu etiraf edirlər? Mənsubiyyət olduğu halda, itki ifadəsindən istifadə oluna bilər və bir halda ki, Azərbaycan bu torpaqların itkisi ilə barışıb yazırlar, deməli, özləri də həmin ərazilərin bizə məxsus olduğunu etiraf edirlər. Amma dərk etmədilirdər ki, müvəqqəti olaraq işğalçıların nəzarətində olan torpaqlarımızın bir qarışının belə itkisi ilə, nəinki Azərbaycan xalqı, bir Azərbaycan vətəndaşı belə barışa bilməz.

## İşğal faktını, ərazilərin zəbt edilməsini ermənilər təkzib etməyə çalışdıqları halda, bunu etiraf edirlər

Erməni mətbuatı, eyni zamanda, işğal olunmuş ərazilər barədə bir bəndin belə olmamasını yazır. Soruşmaq yerinə düşərdi: niyə bu ifadədən, yəni işğal olunmuş ifadəsindən istifadə edilir? Bu, əslində, erməni KİV-lərində işğalın etirafı deyilmi? Əgər erməni işğalçıları tərəfindən həmin ərazilər işğal olunmasaydı və bu faktı da onlar çox gözəl bilməsəydilər, işğal olunmuş ərazilər barədə bəndin olub-olmadığı onların diqqətini niyə belə cəlb etməli idi ki? Göründüyü kimi, işğal faktını, ərazilərin zəbt edilməsini, qaçqın və məcburi köçkün faktını BMT kimi mötəbət bir beynəlxalq təşkilat qəbul edib və bu barədə mövcud dörd qətnamə də sözügedən qurum tərəfindən qəbul olunub və ermənilər təkzib etməyə çalışdıqları halda, bunu etiraf edirlər.

Yaxud Azərbaycanda qaçqın problemləri barədə yazan mətbuat səhifəsi anlamırmı ki, qaçqınlar Azərbaycana məxsusdur? Əgər qaçqın və məcburi köçkünlər Azərbaycana məxsusdursa, bunun baiskarı erməni işğalçılarından başqa kim ola bilər? Yenə də sual ortaya çıxır: haylar dərk etmirmi ki, azərbaycanlı qaçqınların, daha doğrusu, məcburi köçkünlərin yurd-yuvalarından didərgin düşmələri onların işğalçılıq siyasəti sayəsindədir? Hansı bir insan heç bir təsir və təzyiq olmadan öz yurdunu-yuvasını, elini-obasını, evini tərk edər və sığınacaqlarda yaşamağa üstünlük verər? Bu fakt özüözlüyündə erməni işğalını təsdiq etmirmi?

Erməni mətbuatı, yaxud erməni lobbisi nə qədər təkzib etməyə çalışsa da, işğal faktı fakt olaraq qalır və bütün dünya, ələlxüsus, mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunur. Eyni zamanda, bu işğalın aradan qaldırılması üçün, başda BMT olmaqla mötəbər beynəlxalq təşkilatlar müvafiq qərarlar qəbul edib və buna da erməni KİV-ləri təkzib etməyə cəhd göstərməklə, üzərinə kölgə sala bilməzlər. Əksinə, öz mətbuat səhifələrində belə təkziblərlə ermənilər Azərbaycan torpaqlarını zəbt etdiklərini, bunun isə beynəlxalq aləmdə işğal faktı kimi qəbul olunduğunu etiraf edirlər. Bir sözlə, işğal faktının erməni mətbuatında müzakirəsi işğalın etirafıdır.

*İnam HACIYEV*

# BSU-da "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması" mövzusunda tədbir keçirilib

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi Bakı Slavyan Universitetində "Reproduktiv sağlamlıq və ailə planlaşdırılması" mövzusunda maarifləndirici tədbir keçirib.



Tədbirdə universitetin tibbi biliklərin əsasları və mülki-müdafiə kafedrasının müdiri Pərvanə Cəfərova, kafedranın müəllimləri, fakültələr üzrə dekan müavinləri və müxtəlif ixtisaslarda təhsil alan tələbələr iştirak ediblər.

Tədbirdə çıxış edən tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanova gənclərin sağlamlıqlarını qorumaları üçün maarifləmməyə olan ehtiyacdan, məlumatsızlıqdan yaşana biləcək problemlərin ciddiliyindən danışıb.

Sonra İctimai Səhiyyə və İslahatlar Mərkəzinin həkim-mütəxəssisi Lətafət Dadaşova reproduktiv sağlamlığın əsas aspektlərindən olan ailə planlaşdırılması, o cümlədən, cinsi yolla yoluxan infeksiyalarla bağlı mübarizə metodları haqqında məlumat verib. Reproduktiv sağlamlığın qorunmasında vacib amillərdən olan ailə planlaşdırılması, müasir kontraseptivlərdən bəhs edən həkim-mütəxəssis ana və uşaq sağlamlığının mühafizəsi məsələlərinin dövlətin diqqət mərkəzində olduğunu da vurğulayıb.

L.Dadaşova bütün bu problemlərin həlli ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qarşıya qoyduğu məqsədləri diqqətə çatdırıb. Bildirilib ki, reproduktiv sağlamlıq hər bir insan, eyni zamanda, ailə üçün fundamental əhəmiyyət kəsb edir və cəmiyyətin sosial-iqtisadi inkişafının səviyyəsini səciyyələndirir. Süd vəzisi xərçəngi və bu kimi bir sıra digər qadın problemlərinin mövcudluğundan da danışan həkim-mütəxəssis Azərbaycanda ana və uşaq sağlamlığının qorunması istiqamətində mühüm addımların atıldığını bildirib.

Tədbirin davamında iştirakçılara İSİM tərəfindən hazırlanmış maarifləndirici materiallar paylanılıb və mövzu ətrafında diskussiya aparılıb.

*ZÜMRÜD BAYRAMOVA*

# Ermənistanda hökumət binası qarşısında etiraz aksiyası keçirilib



Ermənistanın iri müəssisələrindən olan "Nairit" kimya zavodunun müflis olması səbəbindən işsiz qalan insanlar hökumət binası qarşısında etiraz aksiyası keçirərək pozulmuş hüquqlarının bərpasını tələb ediblər. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, etirazçılar zavodun öz əməkdaşlarına 15 milyon dollardan çox borcunun olduğunu bildiriblər. Bu məbləğ artıq dördüncü ildir ödənilmir. Hökumətə dəfələrlə müraciət olunsa da, fəhlələrin tələbi yerinə yetirilmir.

Zavodun əməkdaşları məsələ ilə bağlı beynəlxalq məhkəməyə də müraciət ediblər. Hökumət binası qarşısında toplaşanlar rəsmilərlə görüş tələb ediblər. Lakin onların cəhdləri cavabsız qalıb. Etirazçılar heç yerdə iş tapa bilməmələrindən şikayətləniblər. Hökumətin başı isə vəzifə bölgüsünə qarışıb.

# Ər-Riyadda keçirilən kinofestival çərçivəsində "Arşın mal alan" filminin rəngli versiyasının təqdimatı olub




"Arşın mal alan" filminin Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş rəngli versiyası Ər-Riyad şəhərində keçirilən "Səfirin seçimi" adlı kinofestival çərçivəsində təqdim edilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirliyi tərəfindən təşkil olunmuş təqdimat mərasimində ölkədə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, həmvətənlərimiz iştirak ediblər. Tədbirdə çıxış edən səfir Şahin Abdullayev bildirib ki, 1945-ci ildə çəkilmiş "Arşın mal alan" filmi 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə ABŞ-ın Los-Anceles şəhərində rənglənərək bərpa edilib. O, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə mədəniyyətimizin təşviqi istiqamətində gördüyü işlər barədə məlumat verib.

# “Bunun adı satqınlıq və xəyanətdir”

## Vidadi İsgəndərli və Orduxan Teymurxan kimilərini erməni lobbisi maliyyələşdirir

***Avropada “siyasi mühacir” adı ilə sosial şəbəkələrdə çıxış edən Vidadi İsgəndərli, Orduxan Teymurxan, eləcə də, onlara Azərbaycanda dəstək verən, yardım göstərən Aslan İsmayılov kimilər ölkəmiz və dövlətimiz əleyhinə şər-böhtan və təhqiramiz ifadələr, fikirlər səsləndirib yayırlar.***

Sual yaranır, onların bu dövlətə və xalqa düşmən kəsilmələrinin səbəbi nə ilə izah oluna bilər? Söhbət etdiyimiz müsahiblərimiz bunun səbəbini onların müəyyən ermənipərəst qüvvələrin təsiri altında olmaları ilə əlaqələndirdilər.

### Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əlimməmməd Nuriyev: “Ağaları sifariş verir və “siyasi mühacir”lər də yerinə yetirirlər”



- Adları çəkilən şəxslərin ölkəmiz və dövlətimiz əleyhinə şər-böhtan və təhqiramiz ifadələr, fikirlər səsləndirib yaymalarının bir çox səbəbləri var. Bu səbəblərdən biri də, Azərbaycanın dünya dövlətləri arasında qazandığı hörmətə və nüfuza kölgə salmaqdan ibarətdir. Avropada “söyüş qrupu”nun üzvləri olan bu insanlar ölkəmizin mənafeni, maraqlarını heç vaxt düşünməyiblər. Faktlar təsdiq edir ki, Vidadi İsgəndərli, Orduxan Teymurxan, Məhəmməd Mirzəli və digərlərinin ölkəmizə qarşı apardıqları çirkin kampaniyanı sifariş əsasında həyata keçirirlər. Çünki ağaları sifariş verir və “siyasi mühacirlər” də yerinə yetirirlər. Ümumiyyətlə, adları çəkilən şəxslərin və onların ağalarının Azərbaycan dövləti ilə bağlı xoşagəlməz planları heç vaxt baş tutmayıb və bundan sonra da baş tutmayacaq. Pislik elə onların özlərinə qalacaq. Heç bir qüvvə ölkəmizin əldə etdiyi uğurlara kölgə sala bilməyəcək.

### Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli: “Bir növ “siyasi mühacirlər” işverən funksiyasını yerinə yetirirlər”



- Artıq real fakta çevrilib ki, Vidadi İsgəndərli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli kimi tipləri erməni lobbisi və ya onlara bağlı olan təşkilatlar maliyyələşdirir və Azərbaycana qarşı yönəldirlər. Yəni ölkəmizi istəməyən həmin xarici qüvvələr məqsədyönlü şəkildə Avropadakı “söyüş qrupu”ndan istifadə edirlər. Əslində, sözügedən şəxslərin Azərbaycanla bağlı heç bir haqları, hüquqları yoxdur. Heç zaman ölkəmizin ictimai-siyasi həyatında iştirak etməyiblər. Onların işi sifariş əsasında xaricdə ölkəmizin əldə etdiyi uğurlara kölgə salmaqdır. Hesab edirəm ki, V.İsgəndərli, Məhəmməd Mirzəli, Qurban Məmmədov, Rəfail Piriyev və digərləri icraçılardır, burada əsas olan onların arxasında duran qüvvələrdir. Bir növ “siyasi mühacirlər” işverən funksiyasını yerinə yetirirlər. Bunun adı isə, satqınlıq və xəyanətdir. Xarici məkrli qüvvələr Azərbaycan dövlətinin müstəqil siyasət aparmasını, dünyada yerinin və rolunun möhkəmlənməsindən, iqtisadi, siyasi və hərbi sahədə güclənməsindən narahatdırlar. Eyni zamanda, Azərbaycan regionun lider dövlətidir və ölkəmizdə sabitlik var. Xaricdəki bəzi qüvvələr neçə dəfə çalışdılar ki, Azərbaycanı Suriyanın və İraqın gününə salsınlar. Amma onların ölkəmiz ilə bağlı planları baş tutmadı və bundan sonra da baş tutmayacaqdır. İndinin indisində də çalışırlar ki, ölkəmizdə nə isə xoşagəlməz bir vəziyyət yaratsınlar, amma yenə onların bu məkrli planları baş tutmur, təbii ki, bundan sonra da məkrli istəklərinə nail ola bilməyəcəklər.

### Ədalət Partiyasının aparat rəhbəri Mütəllim Rəhimli: “Söyüş qrupu”nun üzvlərinin əməlləri cavabsız qalmamalıdır”



- Azərbaycan Respublikasının hər bir vətəndaşı öz dövlətini sevməlidir. Bu, dövlətçiliklə, təfəkkürlə bağlı olan bir məsələdir. Dünyanın elə bir ölkəsi ola bilməz ki, vətəndaş ölkəsinə və dövlətinə qarşı mübarizə aparsın. Avropadakı “siyasi mühacirlər” ölkəmizə qarşı düşmən mövqe sərgiləməklə, milli mənsubiyyətlərində şübhəli məqamlar qoyurlar. V.İsgəndərli, M.Mirzəli, Q.Məmmədov, R.Piriyev və digərləri anti-Azərbaycan mövqeyi sərgiləməklə, erməni dəyirmanına su tökürlər. Düşünürəm ki, “söyüş qrupu”nun üzvlərinin əməlləri cavabsız qalmamalıdır. Qanuna müvafiq şəkildə onlara qarşı tədbirlər görülməlidir. Bu ölkədə göz açan, suyunu içib- çörəyini yeyən hər bir azərbaycanlı harda yaşamasından asılı olmayaraq, öz dövlətinə qarşı sədaqət nümayiş etdirməlidir. Dövlətə qarşı antipatiyanın formalaşması və ona müqavimət hərəkatının yaradılması başa düşülən deyil. Bir sözlə, heç kim öz dövlətinə qarşı çirkin kampaniya aparmamalı və yersiz hərəkətlər etməməlidirlər. Bu, bir aksiomadır ki, dövlətinə qarşı hansısa hərəkata, hansısa birliyə qoşulanlar və anti-təbliğat kampaniyası aparanlar heç bir vaxt nüfuz sahibi ola bilməzlər. Sadəcə olaraq, bunlar bir müddət bir alət kimi istifadə olunur və sonra da atılırlar.

**GÜLYANƏ**

# Əxlaqsızların mənəviyyatı olmaz

## Və ya “siyasi mühacir” adı altında olanları da Orduxan Teymurxanın aqibəti gözləyir

***Bu gün ölkəmizin günügündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salmağa çalışan “sapı özümüzdən olan baltalar” var.***

Bu ünsürlər “siyasi mühacir” adı altında çörəyini yeyib-suyunu içdikləri vətənlərinə qarşı antitəbliğat kampaniyası aparmaqla, erməni lobbisi tərəfindən lazımi maliyyə dəstəyi alırlar. Xüsusilə də, Azərbaycanın uğurlu inkişafından qıcıqlanan erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar yığnağı olan Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rəfael Piriyev, Həbib Müntəzir və digərlərini həyasızcasına çirkin əməllərindən əl çəkmirlər.

### Xəyanətkarın ağı-qarası olmur



Deyir haqq nazilər, amma üzülməz. Gec-tez haqqı tapdalayanların aqibəti ermənilərə qahmar çıxan Orduxan Teymurxan kimi olacaq, törətdiyi cinayət əməllərinə görə də, cəzasını çəkməlidir. Avropada “siyasi mühacir” adı altında dövlətçilik və milli maraqlarımıza qarşı fəaliyyət göstərən blogger cəzasını alacaq.

Mənəviyyatsız və satqın “siyasi mühacir” adı ilə Azərbaycana, dövlətimizə və xalqımıza qarşı şər-böhtan yayan O.Bəbirov, Elşad Abdullayev, Hüseyn Abdullayev, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rəfael Piriyev və bu kimi siyasət rüşeymlər sosial şəbəkələrdə Azərbaycana qarşı “savaş” açmaq tapşırığını yerinə yetirməklə, erməni sevgilərini nümayiş etdirsələr də, heç nə dəyişməyəcək və necə ki, heç bir şey əldə edə bilmirlər. Çünki Avropa ölkələrinə sığınan və son vaxtlaradək trivial videobloqerliklə, bir də məzmunsuz və proqramsız “müxalifətçiliklə” məşğul olan sizin kimi əxlaqsızlar bu gün “virtual inqilabçı”lar və “siyasi mühacirlər” olublar.

Göründüyü kimi, əxlaqsızlıq və tərbiyəsizlik. Təəccüblü də deyil, çünki söyüş və təhqirli ifadələri “siyasi fəaliyyət növü” sayan bu əxlaqsızlar heç bir “kozır”ı yoxdur. Olsa belə, onların heç bir halda sabah hansı addımları atacaqları barədə məlumatları yoxdur. Çünki bu əxlaqsız və tərbiyəsizlər idarə olunanlardır. Ən çarəsizlər və ən bədbəxtlər anlamırlar ki, aqressiv və emosional danışmaqla heç nəyə nail ola bilməyəcəklər və o xəyalların üstünü artıq çoxdan toz basıb.

**Rəfiqə HÜSEYNOVA**



**Təhmasib Novruzov**

## Siyasi ikiüzlülük, yoxsa siyasi əxlaqsızlıq?

***Bu amerikanların siyasətindən baş açmaq olmur ki, olmur. Əslində, baş açmaq olur, sadəcə, dünyaya ədalətdən dərs keçən bu ölkənin nədən ədaləti ayaqlar altına alıb xıncım-xıncım etdiyini heç cürə anlamaq olmur. Bəlkə bu dəfə dünyanın, sivilizasiyanın dağılıb, yenidən qurulması missiyası amerikanlara həvalə edilib?! Belədə başqa ölkələrin bəzi-bəzi siyasiləri bu məmləkətin nəyinə və hansı missiyasına vurulub, onun əlaltısı olmaqdan qürur duyurlar?***

Sovet İmperiyası adlanan qapalı bir dünyada yaşayırdıq. Gizli yollarla əlimizə keçən videolarla-filanlarla bizdə elə təsəvvür yaranırdı ki, ABŞ dünyanın xilaskarıdır və bu missiyanı həyata keçirmək üçün dəridən-qabıqdan çıxır. Elə ki, Sovet İmperiyası dağıldı, biz dünyaya, dünya da bizə açıq oldu, hər kəsin içindəkini görmək asanlaşdı. Baxıb gördük ki, yox atam, bu Amerikanın niyyəti tamam özgədir. Lap təzə-təzə SSRİ-dən qopub müstəqil dövlət quran ölkələrə dəstək məqsədilə “Azadlığa dəstək” şüarı altında bir sıra ölkələrə yardım edən bu ölkənin başbilənləri birdənbirə məşhur” 907 nömrəli düzəliş”i tətbiq etdi və Azərbaycana yardımdan imtina elədi. Eləsin e... Pul onun, qərar vermək hüququ onun, biz buna bir şey deyə bilmərik. Amma bu “düzəliş”in səbəbi kimi, Azərbaycanın ermənilərin hüquqlarını pozması və haqlarını tapdamasını göstərdi. Bir ağlı başında olan Amerika başbiləni tapılmadı desin ki, ay filan-filan olmuş, yardım etmirsən etmə, cəhənnəmə ki, köhnə kişilər demiş, Əli çörək verməsə Vəli acından öləsi ha deyil! Amma necə olur ki, ərazisinə təcavüz olunan biz, dədə-baba yurd yerləri dağıdılan biz, soyqırımına məruz qalan biz, insanların (yəni üzdəniraq ermənilərin) haqlarını pozan da biz? Elə o vaxtdan anlamağa başladıq ki, amerikalıların niyyəti heç də haqqı, ədaləti və azadlığı-filanı qorumaq deyil. Niyyət nədisə, amerikalıların harasınasa girib, orda gizlənib, vaxtı gələndə, ordan çıxıb özünü göstərəcək. Məşhur bir şüar da var idi, deyəsən, ABŞ-ın keçmiş ən böyük başbiləni Ruzvelt demişdi, Amerikanın əbədi dostu yoxdu, əbədi maraqları var”. Bu cümlənin altında gizlənən məna da hər kəsə aydın idi ki, yəni amerikalılar haqqı-ədaləti deyil, onun maraqlarına xidmət edəni müdafiə edirlər. Çox gözəl, bunu da anladıq. Amma anlamadığımız daha bir şey var ki, o da, bunların erməni sevgisidi. Bilmək olmur ki, ermənilərin bu bölgədə “qan ocağı” rolunu davam etdirməsi Amerika siyasətinin hansı maraqlarına uyğun gəlir! Türkiyə kimi nəhəng və etibarlı müttəfiqinə də, bölgənin ən güclü dövlətinə çevrilən və ilbeil inkişaf edən Azərbaycan kimi strateji tərəfdaşını da (hər halda, siyasi sənədlərdə belə təsbit olunur) bu dığaların məkrli niyyətlərinin gerçəkləşməsi naminə özündən uzaqlaşdırmaqla, Amerikanın hansı maraqları həyata keçir, görəsən? Minsk Qrupu adlanan və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli missiyasını həyata keçirməli olan bir qurumun həmsədri olan bu ölkə, indi də başlayıb Ermənistana gizli yollarla silah ötürməyə. Özü də, Bolqarıstanın vasitəsilə. Hər halda, son günlər qəzetlər belə yazırlar. Əgər belədirsə, hesab edirəm ki, ABŞ buna izahat verməlidir. Sülh missiyasına həmsədrlik edən bir ölkənin tərəflərdən birini gizli silahlandırması, sadəcə, ikili siyasətin deyil, siyasi əxlaqsızlığın ən bariz nümunəsidir. Bilmirəm, Şərq xalqlarında əxlaqsızlığa görə verilən cəzanı (ölüm cəzası nəzərdə tuulur) siyasi əxlaqını itirənlərə də tətbiq etmək olarmı? Məncə, olar, amma nə qədər ki, BMT adlanan mötəbər bir qurum da, bu ölkənin vassalı kimi özünü göstərəcəksə, belələrinə cəza kəsilməsi də müşkül məsələ olaraq qalacaq. Belədə bizim də üzərimizə düşən odur ki, amerikalılar necə, biz də elə. Üzünə gülək, əl altından Dərviş Məstəli şah Parisdə işini tamamlayan kimi yönləndirək Vaşinqtona. Vallah, mən başqa yol görmürəm, bəlkə o dünyadan təşrif gətirən Əlixa, Vəlixa və Məlixa cinləri öhdələrindən gələ bunların. Bax, onda qopacaq qiyamətdən heç amerikalılar da canlarını qurtara bilməyəcək.

# "Söyüş müxalifəti"nin siyasi sığınacaq xəyalları puç oldu

## *Onların küt və yararsız mexanizmləri istədikləri effekti vermir*

***Avropada və digər ölkələrdə məskunlaşan və saxta "siyasi mühacir" adı altında "söyüş müxalifətçiliyi" edən qrupların son zamanlar daha da fəallaşmaları arxasında dayanan qaranlıq məqsədlər üzə çıxmaqda davam edir. Belə ki, əsas hədəf olaraq, Azərbaycan hakimiyyətinin rəhbər şəxslərinə qarşı ağızlarına gələn iftira və təhqirləri sosial şəbəkələr vasitəsi ilə ictimailəşdirən bu ünsürlər, xüsusilə, Prezidentin köməkçisi Əli Həsənova qarşı çirkin və heç bir mənəvi dəyərlərə sığmayan kampaniyaya start veriblər. Fakt budur ki, onların, "ipləri" Azərbaycan dövləti əleyhinə işləyən xarici təşkilatların və bu təşkilatlarla sıx bağlılıqları olan erməni lobbisinin, eyni zamanda, separat dairələrin əllərindədir. Daha dəqiq desək, Avropada oturum izni almaq məqsədi güdən və bu məqsədlərini reallaşdırmağa cəhd edən Rəfail Piriyev, Əli Oğuz, Azər Kazımzadə tipli məxluqlar, sözün əsl mənasında, heç bir insanlığa sığmayan ən alçaq metodları istifadə mexanizminə çevirməkdədirlər. Ancaq onların bu kimi küt və yararsız mexanizmləri istədikləri effekti vermir.***

### Onların yalan və şər-böhtanları vaxtilə özlərinə yaxın olan digər şəxslər tərəfindən ifşa olunur

Yeri gəlmişkən, cənab Əli Həsənov onların fəaliyyətlərini ifşa edən və kifayət qədər dəqiq faktlarla çıxış edib və bu ünsürlərin iç üzlərini bütün çılpaqlığı ilə ortaya qoyub. Məhz bu faktların ardınca, daha da azğınlaşan adıçəkilən məxluqlar daxillərindəki quduzluq hisslərini yenidən "klaviatura qəhrəmanlığı" şəklində, eləcə də, şər-böhtançılıq yolları ilə monitorlara yağdırıblar.

Bu arada, ölkə mətbuatında dərc edilən dəlillər və faktlar da bu cür qənaətə gəlməyə zəmin yaradır ki, əllərində "faktların" olduğunu iddia edən ünsürlər, əslində, heç bir faktlara sahib deyillər və sadəcə, yuxarıda qeyd edilmiş məqsədlərinə çatmaq üçün blef edirlər. Lakin bu bleflər nəticəsiz qalır. Özü də onların yalan və şər-böhtanları elə vaxtilə özlərinə yaxın olan digər şəxslər tərəfindən ifşa olunur.

Belə ki, bu günlərdə guya adının çəkilməsini istəməyən Göyçaydakı bir müxalifətçi A.Kazımzadəyə Fransada saxta "siyasi mühacir" adı altında məskunlaşmış Vidadi İsgəndərlinin atasının məzarının təhqir olunması ilə bağlı məlumat ötürüb, həmin məlumatda qəbrin təhqir olunmasında isə, guya Əli Həsənovun rolunun olduğunu iddia edib.

### Əlahəzrət fakt bütün kartları açır, onlarda isə nə fakt var, nə də kartları açmaq üçün danılmaz dəlil



Adları çəkilən hər üç "siyasi mühacir" "Sfera.az" saytının baş redaktoru, "Azerbaijan-Azerbaycan" səhifəsinin idarəçisi Emil Məmmədovun məzarı murdarlaması barəsində əllərində faktların olduğunu bildirirlər. Halbuki bu günlər ərzində, dəfələrlə edilən təkidlərə baxmayaraq, bir fakt belə ortalığa qoymayıblar və bundan sonra da qoya bilməyəcəklər. Çünki əlahəzrət fakt bütün kartları açır, onlarda isə nə fakt var, nə də kartları açmaq üçün danılmaz dəlil. Bu baxımdan, bəlli hay-küylər, sadəcə, blef məqsədli həyasızlıqlardır ki, buna da el arasında fahişə-şivənlik deyirlər...

Ancaq həmin ünsürlər barədə, onlardan fərqli olaraq, bir sıra faktlar ortya qoyulmaqdadır. Misal üçün, məlum olub ki, Ə.Oğuz və R.Piriyev Almaniyadan oturum almaq üçün yerli hakimiyyət orqanlarından imtina cavabı alıblar və onların digər ölkəyə, həmçinin, Azərbaycana deportasiya təhlükəsi var. Eyni zamanda, Gürcüstandan Almaniyaya getməyə çalışan separatçı A.Kazımzadə də buna nail ola bilmir. Beləliklə, bu üzdən hər üç "siyasi mühacirin" Azərbaycana yollarını tamam bağlamaq və öz ölkələrində onları ciddi təhlükələrin gözlədiyi barədə görüntü yaratmaq üçün bu cür çirkin oyunlar oynadıqları artıq kifayət qədər sübuta yetirilib. O cümlədən, A.Kazımzadənin guya Göyçaydan adı məlum olmayan (?-R.R.) kiminsə V.İsgəndərlinin atasının qəbrinin təhqir olunmasında Azərbaycan dövləti rəhbərliyinin rolunun olduğu barədə məlumat ötürdüyü barədə xəbər yaymasının reallıqda qurduğu ucuz şounun tərkib hissəsi olduğu qeyd edilib.

### Yəni dəlillər ortaya çıxdıqca, əsas məlum olan məqsədlər bunlardır:

1. Həmin ünsürlər Azərbaycanın dövlət və hökumət rəsmilərinə qarşı hər cür iyrənc metodlardan istifadə edərək, qarşı tərəfdən reaksiyalara nail olmağa çalışırlar.

2. Reaksiya verilən kimi, onlar "siyasi mühacir" adı altında yaşadıqları ölkələrin miqrasiya orqanlarına məlumat verib, həmin materialları özlərinə qarşı təhdid kimi qiymətləndirilməsini tələb edirlər.

3. Siyasi sığınacaq almaq üçün bu prosesi davamlı şəkildə həyata keçirməyə cəhd edir, hətta sosial şəbəkələrdə saxta profillər yaradıb, öz statuslarına qarşı əks-statuslar yazır və bunu "hakimiyyətin trolları" kimi qələmə verirlər. Bu vasitə ilə Azərbaycanın dövlət rəhbərliyinin onlara qarşı hücum etdiyini bildirirlər.

### Mətanət Əzizova: "İndidən rəylərdə gic-gic şeylərlə mənə ləkə yaxa bilərsiniz... Bu mövzu ətrafında siyasi oyun haqda yazacam"

Bu arada, Çexiyada yaşayan və vaxtilə onlarla əlbir olan Mətanət Əzizova adlı şəxs onların iç üzlərini ifşa edən statusla çıxış edib. Belə ki, M.Əzizova, "Facebook" profilində paylaşdığı bəlli statusunda V.İsgəndərlinin atasının qəbrinin təhqir olunması il bağlı yayılan saxta məlumatın bəzi mühacirlər tərəfindən tirajlanmasının təsadüf olmadığını göstərib. "Almaniyadan sığınacaq ala bilməyən həmvətənlərim saxta məlumatı əllərinə alıb yeni oyuna başladılar" deyə yazan bu şəxs əlavə edib ki, həqiqətləri üzə çıxarması qarşı tərəfin ona hücumları ilə nəticəsini tapıb: "Çox əsəbi halda status, rəylər yazırlar, etirazlarını bildirirlər, özü də bilə-bilə ki, məlumat yalandır. İndidən rəylərdə gic-gic şeylərlə mənə ləkə yaxa bilərsiniz. Ona görə ki, söhbət Vidadi İsgəndərli, Emil Məmmədov və Əli Həsənov haqda yayılmış məlumatdan gedir. Bu mövzu ətrafında siyasi oyun haqda yazacam".

### Emil Məmmədov: "Separatçı Azər Kazımzadəni dəfələrlə debata çağırdım, dedim ki, sübutlarını təqdim et. Dərhal məni blok etdi"

Eləcə də, A.Kazımzadə, Ə.Oğuz və R.Piriyevin şər-böhtanları, hədə və təhdidləri ilə qarşılaşan E.Məmmədov sözügedən məsələ ilə bağlı mətbuatda açıqlama ilə çıxış edib. Onun sözlərinə görə, son günlərdə bu üç şəxs onun üzərinə hücuma keçiblər. "Guya bunların əllərində fakt var ki, Vidadi İsgəndərlinin atasının məzarını mən murdarlamışam. Əgər fakt varsa, buyurun təqdim edin" deyə yazan E.Məmmədov, həmçinin, bildirib ki, bunlara yazanda, onu dərhal bloka atdılar: "Albomumdan fotolarımı oğurlayaraq üzərində təhqiramiz ifadələr yazaraq paylaşırlar. Separatçı Azər Kazımzadəni dəfələrlə debata çağırdım, dedim ki, sübutlarını təqdim et. Dərhal məni blok etdi. Mətanət xanım o statusu tam əminliklə yazıb. Ona Almaniyadakı tanışları vasitəsilə məlumat verilib. Əli Oruc və Rəfail Piriyevə Almaniyada oturum verilmədiyi faktı ortadadır. Azər Kazımzadə isə Gürcüstandan Almaniyaya getmək istəyir. Guya Gürcüstanda onun həyatına təhlükə var. Əli Oğuza salam yazmışam. Status yazıb ki, hər an öldürülə bilər. Ardınca da yazır ki, Emil Məmmədov mənə "salam" yazır, Almaniyadakı idmançı şəxslərə məni döydürə bilər".

### Uydurma videolar...

O cümlədən, statusda yazılıb ki, həmin şəxslər əlbirdirlər və hədəf seçilməsi üçün əllərində səbəb var. "Bu şəxslərin üçü də əlbirdir. 2014-cü ildə Vidadi İsgəndərli ilə problemim olub. Daha çox bunun üçün məni hədəf seçiblər. Məzar söhbətində, iddia edir ki, guya dayım uşaqları həbs olunub. Bu, tamamilə yalandır. Videoda adı çəkilən şəxsin danışığının, ümumiyyətlə, göyçaylılara dəxli yoxdur. Elə bir ləhcə Göyçayda yoxdur. Uydurma bir videodur. Vidadi İsgəndərlinin atasının məzarı ilə bağlı ikinci bir video paylaşıldı. O videodakı məzarla murdarlanan məzar arasında fərqlər kifayət qədər çoxdur. Bir məzarın kənarları dəmirlə, digəri betonla hasarlanıb".

Beləliklə, fakt budur ki, artıq hər şeydən əlləri üzülmüş, eləcə də, siyasi sığınacaq ala bilməyəcəklərini dərk edən bu məxluqlar nə edəcəklərini bilmirlər və dalana dirəndiklərinin də fərqinə varmağa başlayıblar. İndi onlara sərgilədikləri təhqir və söyüş kampaniyaları da təsir göstərmir. Nəzərə alsaq ki, artıq sağlam düşüncəli ictimai rəy də bu kimi ünsürlərin müvafiq cəzalandırılma tələbləri ilə geniş çıxışlar edirlər, bu zaman onların "quyruqlarının qapı arasında qalması" amili daha çox nəzərə çarpmağa başlayır.

*Rövşən NURƏDDİNOĞLU*

# Qunnar Panke: "Müştərinin tələblərinə uyğun təkliflərin hazırlanması "Nar"-ın əsas strategiyasıdır"

***"Nar"-ın növbəti il üçün qarşısına qoyduğu əsas məqsədlərdən biri müştərilərin tələblərinə uyğun təkliflərin hazırlanması, müştərilərə ən sürətli internet təklif etmək üçün həcmi artırmaq, eyni zamanda bölgələrdə 4G şəbəkəsinin əhatə dairəsini daha da genişləndirməkdir".***

Bunu "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke İctimai TV-yə geniş müsahibəsində deyib. O, bundan sonra da "Nar"-ın bütün təkliflərinin müştərilərin arzu və istəklərinə əsaslanacağını bildirib: "Bu o deməkdir ki, daha sərfəli paketlər, xüsusilə də internet paketləri təklif edəcəyik. Məsələn, müştərilərə təklif edəcəyimiz internet paketinin köməyilə onlar daha sürətli internet çıxışına sahib olacaqlar. Təqdim etdiyimiz xidmətlərin abunəçilər, müştərilər üçün



əlçatan olması ümumi strategiyamızın ən müsbət cəhətlərindəndir. Şəbəkə səviyyəsi, qiymətlərin münasib olması "miqyasdan qənaətə" səbəb olduğu üçün növbəti dəfə sərmayə qoymaq imkanımız olur. Bunu elə etmək lazımdır ki, müştərilər tələblərini nəzərə aldığımızı hiss etsinlər".

Qunnar Panke əlavə edib ki, istifadəçi sayını, həcmini artırmaq üçün xidmətlər əlçatan olmalıdır. Buna görə də "Nar"-ın bazar strategiyasının üçüncü sütunu "yaxşı müştəri" və "uyğun təklif paketləri"ndən ibarətdir. 2018-ci il ərzində quraşdırılan baza stansiyaları barədə də ətraflı məlumat verən Qunnar Panke vurğulayıb ki, mobil operatorun əsas strategiyalarından biri Azərbaycanın ən ucqar kəndlərini də şəbəkə ilə təmin etməkdir.

Qeyd edək ki, baş icraçı direktor Qunnar Panke müsahibəsində "Nar"-ın qarşıda duran məqsədləri, yeni məhsulları, şəbəkəsini daha da genişləndirməsi istiqamətindəki planları, mobil operatorun ən yeni texnologiyalarının bölgələrdə istifadəsi, eyni zamanda Azərbaycanın telekommunikasiya bazarında rəqabət mühiti barədə ətraflı danışıb. Müsahibənin tam videosuna aşağıdakı keçiddə baxmaq olar: https://www.youtube.com/watch?v=suHYE5EzLS0&feature=youtu.be

# Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyət mərhələləri

Avropa İnsan Hüquqları Konvensiyasının əksər maddələri məhkəmənin təşkili və fəaliyyətinə həsr edilmişdir. Konvensiyanın gətirdiyi yenilik ondan ibarət idi ki, o, ilk dəfə olaraq, fərdlərin beynəlxalq məhkəmə orqanına müraciətini nəzərdə tuturdu. Konvensiyanın qəbul edilməsinə qədər fərdlərin hüquqlarının məhkəmə qaydasında müdafiəsi yalnız müvafiq dövlətlərin müstəsna hüququ idi. Konvensiya qüvvəyə minəndən sonra, isə, onun müddəalarına müvafiq olaraq, bu hüquqların müdafiəsi ixtisaslaşdırılmış beynəlxalq məhkəmə tərəfindən də mümkün oldu. Məhz buna görə də, Konvensiyanı öz əhəmiyyətinə görə, analoqu olmayan beynəlxalq müqavilə adlandırmaq olar. Şəxsin öz hökumətindən beynəlxalq məhkəmə orqanına şikayət ərizəsi ilə müraciət etmə hüququnu Avropa Məhkəməsinin keçmiş hakimi C.Fitsmoris "İnqilabi anlayış" adlandırmışdır.

Beləliklə, Avropa Konvensiyasının qəbul edilməsi fərdin beynəlxalq hüququn sui generis subyektinə çevrilməsində mühüm mərhələ oldu.

Artıq qeyd etdiyimiz kimi, Konvensiya əsasında yaradılmış beynəlxalq ədalət mühakiməsi mexanizmi kompromis əsasında meydana gəlmişdir. Kompromisin mahiyyəti ondan ibarət idi ki, iştirakçı - dövlətlər Konvensiyanı ratifikasiya etdikdən sonra, həmin dövlətin yurisdiksiyası altında olan şəxslər, avtomatik olaraq, Avropa Komissiyasına müraciət etmək hüququ əldə etmirdilər. Bunun üçün müvafiq dövlətin belə bir hüququ tanıması haqqında xüsusi bəyanatı tələb olunurdu (əvvəlki redaktədə olan, yəni 11 saylı Protokolun qüvvəyə minməsinə qədərki redaktə nəzərdə tutulur, Konvensiyanın 25-ci maddəsi). 1950-ci ildə Konvensiyanı qəbul edən dövlətlərdən, Niderland 1960-cı ildə, Böyük Britaniya 1966-cı ildə, İtaliya 1973-cü ildə, Fransa isə 1981-ci ildə vətəndaşların fərdi şikayət hüququnu tanıdılar. Yuxarıda qeyd olunan maddədə, həmçinin, qeyd edilirdi ki, belə bir bəyanatı vermiş dövlətlər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər.

V.A.Tumanov qeyd edir ki, Konvensiya əsasında mühüm nəzarət mexanizmi - AİHM yaradılmışdır. Məhkəmənin fəaliyyatini tarixi aspektdən (11 saylı Protokolun qüvvəyə minməsinə qədər), şərti olaraq, bir neçə mərhələyə ayırmaq olar.

Z.Əliyevanın göstərdiyi kimi, birinci mərhələni məhkəmənin təşəkkülü dövrü adlandırmaq olar. Əvvəlcə, qeyd etmək lazımdır ki, Məhkəmə, Avropa Konvensiyasının qəbul edilməsindən 9 il sonra, qüvvəyə minməsindən isə, 6 il sonra, yəni 1959-cu ildən fəaliyyətə başlanmışdır. Bu, əsasən, onunla izah olunur ki, artıq qeyd etdiyimiz kimi, iştirakçı-dövlətin Konvensiyanı ratifikasiya etməsi, avtomatik olaraq, məhkəmənin yurisdiksiyasını da tanıması demək deyildi. Bu halda, dövlətin xüsusi bəyanatı tələb olunurdu. Birinci mərhələ təqribən 1959-1970-ci illərin ortalarını əhatə edir. 1959-cu ildə məhkəmə öz reqlamentini qəbul etdi və 1960-1961-ci illərdə öz ilk işinə baxdı ("Lawless v. Ireland"). Sonrakı dövrlərdə məhkəmə daha on işə baxdı, ("Wemhoff v. Germany", "Nuemeister v. Austria", "Stögmüller v. Austria", "Matrnetter v. Austria" və s.). Bu dövrdə, əsasən, məhkəmənin özünün hüquqi mövqeləri formalaşaraq müəyyənləşmişdir. Artıq 1962-ci ildə ikinci baxdığı işdə ("De Bekker Belçikaya qarşı") məhkəmə müəyyən etdi ki, o, dövlətlərin milli qanunvericiliyinə nəzarət həyata keçirmir. Beləliklə, birinci mərhələ məhkəmənin təşəkkülü mərhələsi olmuşdur.

İkinci mərhələ 70-ci illərin ortaları, 80-ci illərin sonlarını əhatə edir. Bu mərhələ məhkəmənin baxdığı işlərin artdığı dövrdür. Bu dövrdə məhkəmənin baxdığı işlərin sayı 200-ə çatdı. Artıq II mərhələnin ilk dövrlərində, aydın oldu ki, məhkəmə təcrübəsində əsas yeri fərdi şikayətlər tutur.

Bu dövrdə Avropa ictimaiyyəti arasında məhkəməyə böyük rəğbət yarandı və məhkəmənin reytinqi sürətlə artdı. Bu mərhələni, şərti olaraq, məhkəmənin təkmilləşməsi dövrü adlandırmaq olar.

Üçüncü mərhələ 1990-1998-ci ilin sonlarını əhatə edir. Bu mərhələnin əsas cəhəti ondan ibarətdir ki, AŞ-nın üzvləri və bununla əlaqədar olaraq, məhkəmənin baxdığı işlər də sürətlə artdı. SSRİ-nin süqutu nəticəsində şuraya 17 yeni üzv qəbul olundu. 1990-1998-ci illərdə məhkəmə 700-ə qədər qərar çıxardı. Bu dövrdə baxılan işlərin üçdə - biri İtaliyanın payına düşür, sonra Fransa-79 iş, Böyük Britaniya-59, Avstriya-54, Yunanıstan-30, Türkiyə-20 və s. Bu dövr təkcə məhkəmənin baxdığı işlərin sürətlə artması ilə əlamətdar deyil. 1990-cı ildə qəbul edilən, fərdi şikayətçinin məhkəmə baxışının tam hüquqlu iştirakçısına çevrilməsini nəzərdə tutan, Konvensiyaya 9 saylı Protokol 1994-cü ildə qüvvəyə mindi.

1992-ci ildə AŞ Parlament Assambleyası (AŞPA), Konvensiyanın məhkəmə sisteminin əsaslı dəyişikliyini nəzərdə tutan tövsiyə qəbul etdi. 1993-cü ilin oktyabrında isə, şura üzvlərinin dövlət və hökumət başçılarının Vyanada keçirilən sammitində bu barədə qərar qəbul edildi. Vyana bəyannaməsində komissiyanın və məhkəməni əvəz edən və daimi əsasda fəaliyyət göstərən vahid AİHM-in yaradılmasının vacibliyi vurğulanırdı. 1993-cü il oktyabrın 8-9-da Vyanada keçirilən konfransda üzv-dövlətlərin dövlət və hökumət başçıları Nazirlər Komitəsinə tapşırdı ki, o, 1994-cü ilin mayında nazirlər səviyyəsində keçiriləcək görüşdə, qəbul edilib və imzalanmağa təqdim olunması üçün, məhkəmə sistemində struktur dəyişikliklərini nəzərdə tutan Protokol layihəsini tam hazırlayıb başa çatdırsın.

Beləliklə, 11 may 1994-cü ildə, Avropa Konvensiyasının hüquq- müdafiə mexanizmində əsaslı struktur dəyişiklikləri nəzərdə tutan 11 saylı Protokol Avropa Konvensiyasını imzalayan AŞ üzv dövlətlərinə imzalanmaq üçün açıq elan edildi. 11 saylı Protokol və buna müvafiq olaraq, yeni redaktədə olan Konvensiya 1 noyabr 1998-ci ildə qüvvəyə mindi. Bununla da, məhkəmə özünün inkişaf tarixinin IV mərhələsinə qədəm qoymuş oldu.

Bu Protokola əsasən, Konvensiyanın II və IV bölmələrində əsaslı dəyişikliklər edilmiş, III bölmə isə, ümumiyyətlə, ixtisar edilmişdir. Hal-hazırda olan redaktədə Konvensiya preambula, üç bölmə və 59 maddədan ibarətdir.

Birinci bölmə 2-18-ci maddələri əhatə etməklə "Hüquqlar və azadlıqlar" adlanır və bu bölmədə Konvensiya ilə təmin edilən əsas hüquq və azadlıqlar təsbit edilmişdir. İkinci bölmə 19-51-ci maddələri əhatə etməklə, "Avropa İnsan Hüquqları Məhkəməsi" adlanır və bu bölmədə məhkəmənin təşkili və fəaliyyətini müəyyənləşdirən normalar və əsas prosedur qaydalar əks olunmuşdur. Üçüncü bölmə 52-59-cu maddələri əhatə etməklə, "Müxtəlif müddəalar" adlanır və burada, əsasən, Konvensiyanın beynəlxalq-hüquqi statusu məsələləri əks olunmuşdur. Konvensiyaya əlavə Protokollardan danışarkən, qeyd etmək lazımdır ki, 2, 3, 5, 8, 10, 11 saylı Protokollar prosedur məsələlərə həsr olunmuş və Konvensiyanın mətninə daxil edilmişdir. 1, 4, 6, 7, 12, 13 saylı Protokollar isə əlavə hüquq və azadlıqları nəzərdə tutur. Konvensiyaya əlavə olaraq, mülkiyyətin müdafiəsi, təhsil hüququ, azad seçki hüququ kimi hüquqları əks etdirən 1 saylı Protokol (və ya Əlavə Protokol) 18 may 1954-cü ildə, borca görə azadlıqdan məhrum etmənin qadağan edilməsi, hərəkət etmək azadlığı, vətəndaşların məcburi çıxarılmasının qadağan edilməsi, əcnəbilərin kollektiv çıxarılmasının qadağan edilməsini nəzərdə tutan, Konvensiyada və ona dair 1 saylı Protokolda təsbit edilənlərdən başqa, bəzi hüquq və azadlıqların təmin olunması haqqında 4 saylı Protokol 2 may 1968-ci ildə, ölüm cəzasının ləğvinə dair 6 saylı Protokol 1 mart 1985-ci ildə, əcnəbilərin çıxarılmasına dair prosedur təminatlar, cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermə hüququ, məhkəmə səhvlərinə görə, kompensasiya hüququ, iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ, ər-arvadın hüquq bərabərliyi kimi Konvensiyaya əlavə hüquq və azadlıqlar nəzərdə tutan 7 saylı Protokol 1 noyabr 1988-ci ildə, ayrı-seçkiliyin ümumi qadağan olunmasına dair 12 saylı Protokol 1 aprel 2005-ci ildə, istənilən halda, ölüm cəzasının ləğvinə dair 13 saylı Protokol isə 1 iyul 2003-cü ildə qüvvəyə minmişdir.

13 may 2004-cü il tarixdə Avropa Konvensiyasına yeni bir Protokol-Konvensiyanın nəzarət sisteminə dəyişikliklər edilməsini nəzərdə tutan 14 saylı Protokol qəbul edilmişdir. Protokolda qeyd olunur ki, bu Protokolu imzalayan AŞ üzv-dövlətləri Avropa Məhkəməsinin və Nazirlər Komitəsinin iş yükünün artmaqda davam etməsi ilə əlaqədar nəzarət sisteminin uzun müddətə səmərəliliyini saxlamaq və daha da artırmaq məqsədilə Konvensiyanın müəyyən müddəalarında təxirəsalınmaz dəyişikliklər etmək ehtiyacını diqqətə alaraq və xüsusilə də, məhkəmənin Avropada insan hüquqlarının qorunmasında mühüm rol oynamaqda davam etməsini təmin etməyə ehtiyacın olduğunu diqqətə alaraq, bu barədə razılığa gəlmişlər. Protokola əsasən, Konvensiyanın 22-ci maddəsinin 2-ci bəndi və 24-cü maddəsi ləğv edilməli, 23, 25, 26, 27, 28, 29, 31, 32, 35-ci maddənin 3-cü bəndi, 38, 39, 46 və 59-cu maddələrinə isə, müvafiq dəyişikliklər edilməlidir. Həmçinin, Konvensiyaya yeni 27-ci maddə və 36-cı maddənin sonuna yeni 3-cü bənd əlavə edilir. Protokola əsasən, hakimlər, Konvensiyanın 11 saylı Protokolun qüvvəyə minməsinə qədərki redaksiyasında olduğu kimi 9 il müddətinə seçilirlər. Lakin əhəmiyyətli fərq ondan ibarətdir ki, yeni Protokola əsasən, onlar təkrarən seçilə bilməzlər. Fikrimizcə, Protokolun gətirdiyi ən mühüm yenilik tək hakimli tərkibdir. Bu da Protokolun preambulasında qeyd olunduğu kimi, məhkəmənin iş yükünün artması ilə əlaqədardır. Protokola əsasən, məhkəmə, ona verilmiş işlərə baxmaq üçün tək hakimli tərkib, üç hakimdən ibarət komitələr, yeddi hakimdən ibarət palatalar və on yeddi hakimdən ibarət Böyük Palata yaradır. Qeyd olunan Protokol Rusiya Federasiyasının ona qoşulmaması səbəbindən, hələ qüvvəyə minməmişdir. Protokol Konvensiyanın bütün iştirakçı-dövlətləri tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minəcəkdir. Konvensiyanın iştirakçı-dövlətlərindən yalnız Rusiya Federasiyası bu Protokolu ratifikasiya etməmişdir. Məhz bu səbəbdən, 2009-cu ilin 12 may tarixində Madriddə, 14 saylı Protokolun qüvvəyə minməsinə qədər onu müvəqqəti əvəzləyəcək 14-bis saylı Protokol qəbul edilmişdir. Qeyd olunan protokol 1 oktyabr tarixindən qüvvəyə minmişdir. Bununla da məhkəmənin inkişaf tarixinin V mərhələsi başlanmış oldu. 14-bis saylı Protokol əsas etibarilə özündə 14 saylı Protokolda öz əksini tapmış iki mühüm müddəanı ehtiva edir:

- Məhkəmənin səlahiyyəti xaricində olan şikayətlərdən imtina edilməsi ilə bağlı qərar tək hakim tərəfindən qəbul oluna bilər;
- üç hakimdən ibarət komitə həm şikayətin qəbul edilənliyi ilə bağlı, həm də mahiyyət üzrə qərarlar qəbul edə bilər.

Yeni müvəqqəti xarakter daşıyan 14-bis saylı Protokolun Azərbaycan Respublikası tərəfindən, mümkün olan ən qısa müddət ərzində, ratifikasiyası Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin vaxtında icrasının mühüm göstəricisi olardı.

13 saylı Protokol Azərbaycan Respublikası tərəfindən imzalanmamışdır. 12 və 14 saylı Protokollar isə Azərbaycan Respublikası tərəfindən imzalanmış, 12 saylı Protokol hələ ratifikasiya edilməmiş, 14 saylı Protokol isə 4 aprel 2006-cı il tarixli qanunla ratifikasiya olunmuşdur.

Avropa Konvensiyasının hüquq-müdafiə mexanizmindəki islahatları tam aydın şəkildə anlamaq üçün bu mexanizim, 11 saylı Protokolun qüvvəyə minməsinə qədər olan təşkilati strukturuna diqqət yetirək. Konvensiyanın (11 saylı Protokolun qüvvəyə minməsinə qədər olan redaktəsində) 19-cu maddəsinə əsasən, razılığa gələn Yüksək Tərəflər bu Konvensiya üzrə öz üzərlərinə müvafiq öhdəliklər götürüblər.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs



## Kartof yuxu üçün səmərəli qidadır



Gün ərzində düzgün qidalanmamaq axşam yuxusuna mənfi təsir göstərir. Həkim-fitoterapevt Ulduz Hüseynova bu barədə AZƏRTAC-a məlumat verərək deyib ki, alimlər araşdırmalar nəticəsində qida rasionunun yuxu rejiminə birbaşa təsir göstərdiyi qənaətinə gəliblər.

Onun dediyinə görə, yuxusuzluqla mübarizədə banan ən yaxşı təsir edən qidalardan hesab edilir: "Yatmazdan bir-iki saat qabaq banan yemək rahat yuxunu təmin edir. Onun tərkibində melatonin və seratoninlə yanaşı maqneziumun da olması əzələlərə rahatlıq verir.

Kartof da yuxu üçün səmərəli qidadır. Onun tərkibindəki kriptoxol maddəsi mədəni yormur və turşuluq səviyyəsini aşağı salır. Gilas şirəsi də bu sahədə ən yaxşı vasitələrdəndir. İki həftə ərzində mütəmadi olaraq səhər və axşam bir stəkan turş gilas şirəsi içmək yuxu sistemini qaydaya salır. "Ürəyin dostu" adlandırılan badam da tərkibindəki bir sıra vitamin və kalsium sayəsində əzələlərin rahatlığını təmin edir. Axşam yeyilən bir ovuc badam şirin yuxu gətirir".

## Klassik musiqi yuxunun keyfiyyətini yaxşılaşdırır?



Tədqiqatçılar 600 könüllü ilə sorğu keçirib. Cavab verənlərin 30 faizindən çoxu yuxudan əvvəl klassiklərin əsərlərini dinləməyə üstünlük verdiklərini söyləyib. Medpress.az-ın xarici mediaya istinadən verdiyi xəbərə görə, Britaniya Musiqi Terapiyası Akademiyasının mütəxəssisləri müəyyən ediblər ki, klassik musiqi dinləmək yuxunun keyfiyyətini yüksəldir və yuxusuzluqla mübarizəyə yaxşı kömək edir. Qədim Çin həkimləri güman edirdilər ki, musiqi istənilən xəstəliyi müalicə etmək iqtidarındadır. Sadəcə, bilmək lazımdır ki, hansı musiqi hansı orqanlara təsir etmək üçün yaxşıdır.

Braziliyanın San-Paulu Universitetinin alimləri isə müəyyən edə biliblər ki, klassik musiqini dinləmək qanda adrenalinin səviyyəsinin sabitləşməsinin, ürək ritminin gecikməsinin və qan təzyiqinin azalmasının qarşısını almağa qadirdir. Mütəxəssislərin fikrincə, musiqi beyinin məhsuldarlığını yaxşılaşdırır, eləcə də stresslə mübarizə aparılmasına imkan verir. Musiqi dinlənilən zaman ağrı səviyyəsi azalır və yuxu keyfiyyəti yaxşılaşır. Rəyi soruşulanların fikrincə, İohann Sebastyan Baxın əsərlərini dinləməyə daha çox üstünlük verirlər.

## Nə üçün düyü yeməliyik?- Səbəbi açıqlandı



Aparılan araşdırmalar göstərib ki, gündə yarım stəkan bişmiş yağsız düyü yemək orqanizm üçün çox faydalıdır. XəzərXəbər xəbər verir ki, düyü bədənin gündəlik fol turşusu və B vitamini ehtiyacının 23 faizini qarşılayır. Bu sayədə hüceyrələrin yenilənməsinə yardım edir. Ehtiva etdiyi 15 növdən çox vitamin, mineral və faydalı antioksidantlar sayəsində düyü bədəni enerji ilə təmin edən əsl qida anbarıdır. Xüsusən son illərdə fol turşusu, kalium, maqnezium, selen, lif, dəmir və sink tərkibinə görə düyü pəhriz reseptlərinə daxil edilməyə başlanıb.

Aparılan bir araşdırma nəticəsində fol turşusunun, həmçinin ürək-damar sağlamlığı və anadangəlmə ürək narahatlıqlarının müalicəsi üçün effektli olduğu üzə çıxıb. Düyü bədənin sağlam şəkildə qocalmasını dəstəkləyir. Bundan başqa, bədənin yavaş-yavaş həzm etdiyi kompleks karbonhidrat serotonin hormonlarının ifraz olunmasını təmin edir və bədəni gümrah saxlayır, eləcə də iştahanı nəzarət altında saxlayır.

### ELAN

Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və menecment fakültəsinin Biznesin təşkili və idarəolunması ixtisası üzrə təhsil alan tələbəsi Şibikov Elvin Qəhrəman oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Badmintonçumuz Türkiyədə bürünc medal qazanıb



Badmintonçularımız Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni Ankarada keçirilən "Turkey International 2018" turnirində çıxışlarını başa vurublar.

AZƏRTAC xəbər verir ki, təmsilçilərimizdən Edi Reski Dviçayo 1/16 finalda yunanıstanlı İlias Xanzounu məğlub edib. Edi növbəti mərhələdə Danimarka idmançısı Soren Hald üzərində qələbə qazanıb. Badmintonçumuz 1/4 finalda Türkiyə təmsilçisi Məhəmməd Əli Kurta qalib gəlib. Yarımfinala yüksəlməklə bürünc medalı təmin edən Edi bu mərhələdə indoneziyalı İkhsan Leonardo İmanuel Rumbaya uduzub.

Mübarizəyə 1/16 finaldan başlayan Ezmi Qovimuramadhoni ilk mərhələdə özbəkistanlı Artyom Savatyugini məğlub edib. Ezmi 1/8 finalda İndoneziya badmintonçusu Kristian Adinataya uduzub və mübarizəni dayandırıb.

## Həbib Nurməhəmmədovun Makqreqorla revanş döyüşü üçün şərti açıqlandı



UFC çempionu Həbib Nurməhəmmədovun atası Abdulmanap Nurməhəmmədov oğlunun irlandiyalı Konor Makqreqora qarşı revanş döyüşünün şərtlərini açıqlayıb. SİA-nın məlumatına görə, Nurməhəmmədov döyüşün yalnız yüksək mükafat fondunun olacağı təqdirdə keçirilə biləcəyini bildirib: "Buyurun, 30 milyon və sizinlə döyüşəcəyik. Bu, Makqreqora təklifdir. Onunla revanş üçün 15 milyon təklif edirdilər. Nəyə lazımdır? Otuz, uşaqlar, otuz". Qeyd edək ki, H.Nurməhəmmədov 2018-ci ilin oktyabr ayının 6-da K.Makqreqoru döyüşün dördüncü raundunda məğlub edib.

## "Neftçi" Rəşad Eyubov ilə yollarını ayırıb



"Neftçi" futbolçusu Rəşad Eyubov ilə yollarını ayırıb. SİA-nın məlumatına görə, paytaxt təmsilçisi 26 yaşlı yarımmüdafiəçi ilə olan müqaviləyə qarşılıqlı razılaşma əsasında xitam verib. Klub oyunçuya gələcək karyerasında uğurlar arzulayıb. Qeyd edək ki, Rəşad Eyubov "Neftçi"yə mövsümün əvvəlində "Sumqayıt"dan keçib. O, komandanın heyətində 6 oyunda meydana çıxıb.

## "Qalatasaray"ın düşərgəsində yeni qapıçı



Transfer çalışmalarını davam etdirən "Qalatasaray" klubu gələcəyə də yatırım edir. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, "sarı-qırmızılar" 18 yaşlı kosovolu qapıçı Flamur Qaşini baxışa dəvət edib. Əgər məşqçilər ondan razı qalsalar, futbolçu heyətə cəlb olunacaq. Kosovonun 1-ci liqasında mübarizə aparan "KF Liria Prizren" klubunda forma geyinən qolkiperin 1,91 m boyu var. Futbolçu bu mövsüm 7 oyunda meydana çıxıb və 3 qol buraxıb. Onun klubu ilə müqaviləsi 2019-cu ilin iyun ayında başa çatacaq.

## "Arsenal"da Məsut Özil problemi...



"Arsenal"ın baş məşqçisi Unay Emerinin futbolçusu Məsut Özili niyə oynatmadığının səbəbi müəyyənləşib. Qol.az-ın "İndependent"ə istinadən yaydığı xəbərə görə, ispan mütəxəssisin hər futbolçudan qaçıb pressinq etməyini, ancaq türkəsilli alman yarımmüdafiəçinin buna qarşı çıxdığı bildirilib. Məhz bu səbəbdən Emerinin Məsutu oynatmadığı iddia olunub. "Arsenal"ın baş məşqçisi jurnalistlərə açıqlamasında oyunçunun onu dinləmədiyini təsdiqləyib: "Hər oyunçu baş məşqçinin istəklərini yerinə yetirir. Məsut Özildən başqa".

Britaniya mətbuatı baş verənlərdən sonra U.Emerinin Məsutun satılmasını istədiyini yazıb. Ancaq Özilin London təmsilçisindən ayrılmağa müsbət baxmadığı bildirilib.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500